**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**UĞUR SÜLEYMAN oğlu HƏSƏNOV**

# BÖYÜK BRİTANİYA VƏ ARGENTİNA ARASINDA FOLKLEND MÜHARİBƏSİ

**HSM-060211-Regionşünaslıq (Cənubi Amerika üzrə)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər: *A. Ş. Şahmuradov*

*tarix üzrə fəlsəfə* doktoru

**BAKI- 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ.** ........................................................................................ **3-6**

**I FƏSİL. FOLKLEND MÜHARİBƏSİNİN TARİXİ KÖKLƏRİ VƏ SƏBƏBLƏRİ** ........................................................................ **7-33**

1.1 Folklend adalarının mənsubiyyəti məsələsinin tarixi-hüquqi aspektləri ........................................................................ 7-12

1.2 Folklend müharibəsinin səbəbləri və müharibə tərəfləri arasında qüvvələr nisbəti ........................................................................ 12-33

**II FƏSİL. BÖYÜK BRİTANİYA VƏ ARGENTİNA ARASINDA MÜHARİBƏ VƏ ONUN NƏTİCƏLƏRİ** ........................................ **34-59**

2.1 Hərbi əməliyyatlar və onların xarakterik xüsusiyyətləri ..................... 34-41

2.2 Folklend müharibəsinə beynəlxalq reaksiyalar ................................. 41-52

2.3 Müharibənin nəticələri və Böyük Britaniya–Argentina münasibətlərinin sonrakı inkişafına təsiri ................................................ 52-59

**NƏTİCƏ** ........................................................................................ **60-62**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI** .......................................... **63-68**

# GİRİŞ

**Mövzunun aktuallığı.** İngiltərə və Argentina arasındakı münasibətlərdə xüsusi əhəmiyyət kəsb edən Folklend mübahisəsi 1833-cü ildə adada məskunlaşan argentinalıların İngiltərə tərəfindən güc tətbiq edilərək, buradan uzaqlaşdırılması ilə başladı. Argentinada mövcud olan hökümətlər 1833-cü ildən günümüzə qədər İngiltərə hakimiyyəti altında olan ada üzərində haqq tələb etməyə davam edir. Bu tələbə İngiltərə tərəfindən əhəmiyyət verilməməsi mübahisənin həllinin tapılmasını daha da çətinləşdirir.

BMT Folklend adalarının suverenliyi barədə mübahisənin mövcudluğunu 1965-ci ildə qəbul etmiş və bundan sonra İngiltərə və Argentina qarşılıqlı danışıqlara çağırılmışdır. Bu danışıqların bir nəticə vermədiyini görən Argentina xuntası 1982-ci il aprelin 2-də Folklend adasını işğal etdi. BMT Təhlükəsizlik Şurası Argentina qoşununun adadan çəkilməsini istədi,ancaq Argentina ordusu buna əməl etmədi. İngiltərə 1982-ci ilə qədər adanın suverenliyinin Argentinaya verilməsini hardasa qəbul edirdisə, 1982-ci ildən sonra bu məsələnin müzakirə edilməsinə belə yanaşmadı. Argentina isə, Folklenddə məğlub olmasına baxmayaraq, ada üzərindəki hakimiyyət iddialarını bu gün də davam etməkdədir. Tərəflər arasındaki danışıqlarda,müharibənin bu məsələnin həll yolu olmadığı hər iki ölkə tərəfindən qəbul edilmişdir. Bu gün Folklend adaları üzərində hakimiyyət məsələsi iki ölkə arasında hələ də həll edilməmiş bir məsələ olaraq qalır və ölkələrin münasibətinə öz təsirini göstərir. Regionda zəngin neft-qaz yataqlarının olması və ada sakinlərinin İngiltərənin tərkibində qalmaq istəməsi mübahisənin həllini daha da çətinləşdir.

Folklend adaları ilə bağlı Böyük Britaniya və Argentina arasında münaqişə iki ölkə arasında münasibətlərdə mühüm rol oynayır, həmçinin bütövlükdə Latın Amerikasında geosiyasi vəziyyətə ciddi təsir göstərir. Bu günə qədər Folklend adalarının kimə mənsub olması (məxsus olması) problemi həll olunmamış qalır və Böyük Britaniya ilə Argentina arasında ziddiyyətlərin səbəbidir. Bu problem onlar arasında qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına mane olur. Bu problemin tədqiqi

konkret ölkələrin münaqişənin həllində rolunu, habelə onun beynəlxalq münasibətlər sistemindəki əhəmiyyətini müəyyən etməyə imkan verir.Azərbaycan Respublikasının Argentina və B.Britaniya ilə əlaqələrini nəzərə alaraq,onların qarşılıqlı əlaqələrini öyrənilməsinin,respublikanın xarici siyasət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da müəyyən aktuallıq kəsb edir.

**Dissertasiya işinin öyrənilmə dərəcəsi.** Böyük Britaniya və Argentina arasında Folklend müharibəsi tədqiq olunarkən adanın tarixindən başlayaraq bu günədək olan bütün tarixi analiz olunmuş, dərin təhlil aparılmış, ada problemi meydana çıxanadək həm Argentinanın, həm İngiltərənin tarixi ətraflı araşdırılmışdır. Araşdırmaların nəticəsində mövzu yüksək və tam səviyyədə mənimsənilərək dissertasiya işi yazılmışdır. D.Dunnet, P.D.Dickens, G.M.Dillonun əsərlərindən Folklend problemini tarixi aspektdən araşdırılmışdır və həmin əsərlərin materiallarından iş prosesində istifadə edilmişdir.

Tədqiqat prosesinə cəlb olunan əsərlərin bir qismi Folklendin sosial-iqtisadi vəziyyəti ilə bağlıdır.Bu baxımdan, D.G.Boyse,D.M.Bruni, J.C.Çasteen tədqiqatlarını göstərmək olar.

C.Bluth və A.Bullet-in əsərlərinin obyektini Böyük Britanyanın və Argentinanın Folklend probleminə yanaşması ilə bağlı məsələlər təşkil edir və bu əsərlərdə yer alan materiallar da dissertasiya üzərində iş prosesinə cəlb edilmişdir.

Tədqiqat prosesində istifadə olunan resursların bir hissəsini internet resursları təşkil edir. Problemin öyrənilməsində ilkin mənbələrdən geniş istifadə olunub.

**Tədqiqatın obyekti.** Böyük Britaniya və Argentina arasında Folklend müharibəsi tədqiqat işinin obyektidir.

**Tədqiqatın predmeti.** Folklend adalarının mənsubiyyəti məsələsinin tarixi-hüquqi aspektləri,Folklend müharibəsinin səbəbləri və müharibə tərəfləri arasında qüvvələr nisbəti,hərbi əməliyyatlar və onların xarakterik xüsusiyyətləri,Folklend müharibəsinə beynəlxalq reaksiyalar, müharibənin nəticələri və Böyük Britiniya-Argentina münasibətlərinin sonrakı inkişafına təsiri tədqiqat işinin predmetidir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Argentina və İngiltərə arasında Folklend probleminin mənşəyi və müasir dövrdəki vəziyyətin tədqiqat işinin məqsədini təşkil edir.

Bu məqsədə nail olmaq üçün qarşıya qoyulan əsas vəzifələr aşağıdakılardır:

1. Münaqişənin tarixini müəyyənləşdirmək və bu konteksdə Argentina – Böyük Britaniya əlaqələrini nəzərdən keçirib və təhlil etmək;
2. Folklendin müasir daxili siyasi sistemini və statusu ilə bağlı məsələləri öyrənmək;
3. XX əsrdə Folklend məsələsi ilə əlaqədar Argentina və Böyük Britaniya arasında aparılan danışıqlar, habelə BMT-nin bu problemə münasibətini təyin etmək;

**Tədqiqat işinin metodoloji bazası.** Dissertasiya işi bir neçə metod vasitəsilə tədqiq olunub. Bunlardan ilki tarixi tədqiqat metodudur. Bu metod zamanı hadisələrin formalaşma mərhələləri, tarixi dəlillərin toplanması həyata keçirilib. Kontent analiz metodundan istifadə edilmiş və mövzu ilə bağlı ədəbiyyat siyahısı seçilmiş və dissertasiya işinə əlavə edilmişdir. Hadisələri və aktorları aydınlaşdırmaq, daha dəqiq təhlil etmək üçün müqayisə metodundan da istifadə olunub. Araşdırmalar aparılarkən rəsmi internet saytlarından, xarici ədəbiyyat materiallarından, əksər tarixi mənbələrdən istifadə olunub.

**Dissertasiya işinin təcrübi əhəmiyyəti.** Dissertasiya işi bir çox xarici mənbələrdən fərqli müəlliflərin elmi məqalə, kitablarından istifadə olunaraq hazırlanmış, Folklend adasının yaranma tarixindən başlayaraq tarixi hadisədə hər bir məsələ başdan sona təhlil edilmiş, bu sahədə aparılacaq olan tədqiqatlar üçün faydalı bir mənbə olaraq yekunlaşdırılmışdır.

**İşin aprobasiyası.** Ümumi tədqiqatla bağlı 1 məqalə və 1 tezis yazılmışdır.

**Dissertasiya işinin elmi yeniliyi.** Tədqiqatın yeniliyi ondadır ki, iş prosesində yalnız nəzərdən keçirilən məsələ ilə bağlı tərəflərin mövqeləri öyrənməmiş, həm də konkret tarixi şəraitdə, problemin xüsusiyyətləri nəzərə alınaraq, onların mübahisəyə yanaşmaları müqayisəli şəkildə təhlil edilmişdir.Argentinanın ada üzərində hələ də haqq tələb etməsi, Argentina və İngiltərə üçün neft və digər yeraltı sərvətlərə görə

adanın strateji əhəmiyyət daşıması, Folklend adasına sahib dövlətin Cənubi Atlantika regionunun böyük bir hissəsinə və neft olan regiona nəzarət etməsi fikri təşkil edir.

**İşin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Regionşünaslıq kafedrasında yerinə yetirilmişdir.

**İşin strukturu və həcmi.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

# I FƏSİL. FOLKLEND MÜHARİBƏSİNİN TARİXİ KÖKLƏRİ VƏ SƏBƏBLƏRİ

## 1.1 Folklend adalarının mənsubiyyəti məsələsinin tarixi-hüquqi aspektləri

Coğrafi kəşflərdən sonra Atlantik okeanının cənubu gəmi ticarəti və tranzit gəmi keçidləri üçün mühim əhəmiyyət kəsb etmişdir. Panama kanalının açılmasından əvvəl bütün ticarət və savaş gəmiləri Avropanın müxtəlif limanlarından yola çıxaraq şərqə, Hindistana və Çinə getmək üçün ya Afrikanın cənubunda olan Ümid burnunu, ya da Çili və Argentina arasında olan Magellan boğazını keçməli idilər. Bu baxımdan ticarət yolları üzərində olan Folklend adaları həm ticarət, həm də hərbi baxımdan strateji əhəmiyyət kəsb edirdi. Belə ki, bu regionda olan hakimiyyət buradan keçən bütün ticari və hərbi gəmiləri birbaşa idarə və nəzarət edirdi. Bu hal müstəmləkə dövrü üçün də keçərli idi. Folklend adaları müstəmləkəçilik dövründə Birləşmiş Krallıq gəmiləri və ticarəti üçün vacib bir nöqtə idi. Ancaq Panama və Süveyş kanallarının açılması ilə Magellan boğazından keçidlər azalmış və bu hal Folklend adalarının da əhəmiyyətini bir qədər azaltmışdır. Buna baxmayaraq, Folklend adaları Atlantik okeanının cənubunda, Arganentinanın cənub-şərqində yerləşən 700-dən çox adadan ibarət arxipelaqıdır.

Adalar üzərində siyasi və hərbi çəkişmələr ilk olaraq XVI əsrdə, arxipelaqın kəşfindən sonra meydana çıxmışdır. Bəzi mənbələrə görə, adalar ilk olaraq ispanlar tərəfindən bəzi qaynaqlara görə isə ingilislər tərəfindən kəşf edilmişdir. Bu məsələyə uzun müddət aydınlıq gətirilməmişdir və hələ də mübahisə-müzakirələr davam etməkdədir. Argentinaya görə adanı 1502-ci ildə Ameriqo Vespucci ya da 1520-ci ildə Magellan ilə səyahətə çıxan portuqaliyalı dənizçi Estaban Gomez kəşf etmişdir. İngilis mənbələrinə görə isə, dənizçisi John Devis 1592-ci ildə Folklend adasını görən ilk şəxs hesab olunur, lakin ilk dəfə onun görünüşü haqqında bəhs edən, təxminən

1600-cü ildə hollandiyalı Sebald de Veert olmuşdur (60, s 3). 1690-cı ildə ingilis kapitan John Strong ilk qeydə alınan rəsmi səfər etmişdir. Strong 2 əsas ada arasındakı kanalı britaniyalı dənizçi Viskount Folklendin adına Folklend olaraq adlandırmışdır. Daha sonra bu ad bütün arxipelaq üçün istifadə olunmağa başlandı. 1764-cü ildə fransız səyyah Luis Antonio de Bogenvil Şərqi Folklenddə ilk yaşayış məskəni saldı və arxipelaqın bu hissəsinə Malvin adını verdi. 1765-ci ildə isə Qərbi Folklenddə ilk yerləşən ingilislər oldu. 1767-ci ildə ispanlar adanın şərqin ilk məskunlaşdırılan ərazini fransızlardan pul ilə satın aldılar və 1770-ci ildə ingilislər də adanı tərk etdilər. Növbəti ildə isə, ingilislər savaşmadan, təhdid yolu ilə hər iki adada olan ispanları oradan çıxartdılar. Daha sonra ispanlar danışıqlar yolu Şərqi Folklendə yenidən sahib olmuş və oranın adını "Soledad" olaraq dəyişdirmişdirlər.

Folklend adası XVI əsrdən etibarən fərqli milltələrdən olan dənizçilərin xəritələrində görünməyə başlamışdır. Tarixin ən mühüm səyyah və coğrafiya alimlərindən olan Piri Rəisin 1513-cü ildə çəkdiyi xəritədə də bu ada yer alıb (61, s 27).

İspanlar 1829-cu ildə adaları İspan İmperatorluğunun muxtar dövləti olan və imperatorluğa vergi verən Argentinanın nəzarətinə verdi. 1831-ci ildə Luis Vernet Argentinanın ərazi sularını pozan ABŞ gəmilərini ələ keçirdi. Buna cavab olaraq ABŞ öz hərbi gəmilərini bura göndərdi və buradaki argentinalıları məhv edərək ingilisləri adalarda yerləşdirdi. Bunun nəticəsində adalar uzun illər İspaniya imperatorluğunun və ona bağlı vassalı-Argentinanın hakimiyyətindən çıxaraq, İngiltərə hakimiyyəti altında qalmışdır. Hər iki tərəf uzun illər regionda hökmranlıq yaratmağa çalışmışdır. Daha sonra Argentinanın haqq tələb etməsinə baxmayaraq Birləşmiş Krallıq 1833-cü ildə ada üzərində hakimiyyətini elan etdi. Adaların əzəli sakinlər olan mestizolar və Argentinadan köçərək bura yerləşən, özlərini argentinalı kimi tanıdan ispan və ya italyan əsilli avropalılar ingilislər adaya gələnə qədər burada balıqçılıq, mədənçilik, balina ovu kimi işlərlə məşğul olurdular. Eyni zamanda, burada fəal bir xalq mövcud idi və bu xalq o dövrün beynəlxalq arenasında İspan imperatorluğunun varisi olaraq qəbul edilən Argentina dövlətinin milləti hesab

olunurdu. Argentinanın əlini gücləndirən və adaları öz hissəsi kimi qəbul edilməsini tələb etməsinə səbəb olan digər amillər isə həm ada xalqının mənşəyi, həm də onun mənsubiyyəti idi, lakin bu tələb ingilislərin adaya yerləşməsi və adada tək bir argentinalı qalmayacaq şəkildə təcrid siyasəti aparması ilə sona çatdı. O dövrdə tətbiq olunan ingilislərin bu siyasət problemlərin günümüzə qədər gəlib çatmasına səbəb olmuşdur. Hər nə qədər iki tərəf illər boyu adalar üzərindəki haqlarını tələb etsələr də müxtəlif anlaşmalarla silahlı münaqişədən çəkinmişlər. XX əsrin II yarısında onlar öz iddia və tələblərinə davam etmələrinə baxmayaraq, heç bir nəticə əldə olunmamışdı. Argentina Beynəlxalq Ədalət Məhkəməsinin səlahiyyətini tanımadığı üçün məhkəmə də region xalqına hakimlik etməyi rədd etdi.

Argentinanın Folklend adaları üzərində suverenlik onun tələbi müstəmləkə asılılığından azad olunmasından sonra başlamışdır. Arxipelaq Argentina müstəqillik əldə edənə qədər İspaniya idarəsində qalmışdı. 1774-1811-ci illər arasında adada 19 qubernator olduğu qeyd olunur (32, s 11).

İspaniyanın müstəmləkələrində başlayan müstəqillik hərəkatlarının müxtəlif səbəbləri var idi:

-İngiltərənin İspaniya müstəmləkələrini müstəqillik yolunda dəstəkləməsi;

-Napoleonun İspaniyanı işğal etməsi;

-VII Ferdinand əvəzinə Napolyonun qardaşı Josephin taxta çıxması və s. (13, s 697-698).

Argentina Folklend adaları suverenliyi ilə bağlı olan iddialarını bir müddət ancaq etirazla davam etdirmişdir. 1945-46-cı ildən sonra isə beynəlxalq arenanın diqqətini çəkmək, İngiltərəni danışıqlara razı salmaq məqsədilə, regionda bəzi güc tətbiqlərinə başlamışdır. İngiltərə isə Argentinaya cavab olaraq, regiona “ HMS Sheffield” gəmisini göndərdi. Hər iki ölkə münaqişədən çəkinərək, bir-birinə güc nümayişini davam etdirdilər.

BMT yarandıqdan sonra İngiltərə xarici siyasətində dekolonizasiya prosesinin başlaması Argentinanın ada üzərindəki hakimiyyət tələbini BMT-də müzakirəyə çıxarılmasında əhəmiyyətli rol oynadı (14, s 742). BMT Baş Assambleyası 1960-cı

ildə “Müstəmləkələrin ləğvi və müstəmləkə ölkələrinin haqlarının tanınması” adlı 1514 saylı qətnaməni qəbul edilmişdir. Daha sonra, 1514 saylı qətnaməyə dəstək vermək üçün BMT Müstəmləkə Komitəsi yaradılmışdır.1961-ci ildən etibarən Folklend adası məsələsinə müstəmləkə problemi kimi baxılmışdır. ( 59, s 20).

İngiltərə və Argentina arasında Folklend adası ilə bağlı münaqişənin olması ilk dəfə BMT Baş Assambleyasının qəbul etdiyi 2065 saylı qətnamə ilə tanınmışdır. Bu haqda qərar 16 dekabr 1965-ci ildə BMT Baş Assambleyasının ümumi sesssiyasında “Folklend adası haqqında sual” başlığı ilə müzakirə olunmuş, 94 səs lehinə, 14 səs birtərəf olmaqla qəbul edilmişdir. (47, s 8). Baş Assambleyanın qərarına görə, hər iki ölkə problemi həll etmək üçün sülhü seçməli və gec olmadan danışıqlara başlamalı idi. (14, s 15). 2065 saylı qətnamədə “Folklend” adı ilə yanaşı, Argentina və digər Cənubi Amerika ölkələrinin də istifadə etdiyi “Malvin” adı da istifadə olunmuşdur. Argentinanın məsələni BMT Baş Assambleyasına çıxararaq ada üzərində hakimiyyət tələb etməsi problemi bir çox ölkəyə həm eşitdirməyə, həm də tanıtmağa kömək oldu. 2065 saylı qətnamənin qəbul edilməsi Argentina üçün böyük uğur idi. BMT-də Folklend məsələsinin bir müstəmləkə problemi kimi qəbul edilməsi müstəmləkə əleyhinə olan dövlətlərin də Argentinaya dəstək olmasına səbəb oldu. (19, s 10).

Argentina ilə aparılan danışıqlarda adanın suverenliyi mövzusunda konsensus əldə edilməsi gözlənilirdi. Danışıqların da bu istiqamətdə aparılmasına səy göstərilirdi, lakin İngiltərə ada üzərində hakimiyyət məsələsini müzakirə etməyəcəyini bildirdi. Bu isə danışıqlar prosesinin uzanmasına və nəticəsiz qalmasına səbəb olurdu. Digər bir məsələ isə, 2065 saylı qətnamədən sonra qəbul edilən 3160 saylı qətnamədə arxipelaqın bir müstəmləkə olduğu və məsələnin həlli üçün ada sakinlərinin də fikrinin nəzərə alınmalı olduğu bildirilib. (17, s 22; 24, s 9). Argentina isə, ada ilə bağlı qərarların sadəcə İngiltərə və Argentina arasında müzakirə olunmasını, ada sakinlərinin danışıqlara daxil edilməməsini istəyirdi. Folklend adasının suverenliyi ilə bağlı məsələ hər il BMT-də müzakirə olunmuş və təxirə salınaraq nəticəsiz qalmışdır (19, s 10).

Argentina ada sakinlərinin danışıqlara daxil edilməsini istəmirdi çünki, “self-determination” (öz müqəddəratını təyin etmək”) maddəsi ərazi bütövlüyünə təhdid olacağını düşünürdü. İngiltərə isə, ada sakinlərinin fikrinin nəzərə alınmasını, sadəcə onların istədikləri təqdirdə ada üzərində hakimiyyətin Argentinaya verilməsini tələb edirdi.

Öz müqəddəratını təyin etmə prinsipi bir xalqın müstəqil bir dövlət qurması daxil olmaqla, istədiyi dövlətə bağlı olmağı seçmək hüququdur. Bu müddəanın reallaşdırılmasındaki məhdudiyyətlər BMT qərarları ilə müəyyənləşdirilir. Xalqlar öz müqəddəratını həll edərkən, ölkələrin ərazi bütövlüyünə zərər verməməlidirlər. 1970-ci ildə qəbul olunan 2625 saylı, 1973-cü ildə qəbul olunan 3160 saylı, 1976-cı ildə qəbul olunan 31/49 saylı qətnamədə də bu hal qeyd olunmuşdur (38, s 10; 59, s 23). Buna görə də, milli bütövlüyü və ya ərazi bütövlüyünü pozacaq hər hansı bir cəhd BMT qətnamələri ilə uzlaşmır.

BMT Baş Assambleyasında Argentina adına çıxış edən Xose Mariya Ruda arxipelaqda öz müqəddəratını təyin etmə prinsipinin reallaşdırılmasının Argentinanın ərazi bütövlüyünü pozacağını bildirdi. Ruda Argentina hakimiyyəti altında olan arxipelağın 1833-cü ildə İngiltərə tərəfindən güc tətbiq edilərək işğal olunduğunu və beləliklə argentinalıları oradan uzaqlaşdıraraq, ingilisləri məskunlaşdırıldığını da qeyd edib. O, eyni zamanda, sonradan burada yerləşdirilən əhali üçün öz müqəddəratını təyin etmə prinsipinin istifadə oluna bilməyəcəyini, bunun Argentinanın ərazi bütövlüyünə zərər verəcəyini də qətiyyətlə vurğulayıb (60, s 13).

1964-cü ildə Argentina BMT Müstəmləkə Komissiyasına müraciət edərək məsələnin vasitəçi olmadan, iki tərəfin danışıqları ilə həll olmasını tələb etdi. Lakin hər iki tərəfin tələblərində qərarlı olması bu cəhdin də fayda verməməsinə səbəb oldu. 1977-ci ildə danışıqlar təkrar başladı. 1980-ci ildə İngiltərə arxipelaqda referendum keçirmiş və ada sakinləri İngiltərənin tərkibində qalmağa səs vermişdir. Bu hal Argentina tərəfindən heç vaxt qəbul edilməmiş və İngiltərənin ada üzərindəki hakimiyyətini tanımamışdır, ancaq Argentina yarım əsrdir diplomatik cəhdlərlə əldə etmək istədiyi nəticələrin heç birinə nail olmamışdır. Beynəlxalq arenada Folklend

adaları üzərində iddialarının qanuniliyini və qəbul edilməsini bu yolla əldə edə bilməyəcəyini anlayaraq, strategiyasında dəyişikliklər etmişdir. Daha sonra atacağı addımlar bu strateji dəyişikliklərin nəticələri olub, hərbi böhranın başlamasına və dərinləşməsinə səbəb olmuşdur.

Beynəlxalq hüquq baxımından adanın mənsubiyyət məsələsi bir sıra yeni mübahisələrə yol açmışdır. Bu mövzuda gedən müzakirələr hələ də öz aktuallığını qorumaqda və yeni fikir və yanaşmaların yaranmasına şərait yaratmaqdadır.

Folklend adaları Birləşmiş Krallığa bağlı muxtar bir dövlətdir və öz konstitusiyası vardır. İngiltərə adaların idarəsi ilə bağlı bir çox addım atmışdır və yekunda istədiyi nəticələri əldə etmişdir. Başda Argentina olmaqla, Latın bloku və imperialist qərb ölkələri xaricində qalan digər güclər isə İngiltərənin Folklend adaları məsələsində həyata keçirdiyi tədbirlərin bir çoxunun beynəlxalq hüquqa zidd olduğunu bildirməkdədir. Adalar hər nə qədər Birləşmiş Krallıqdan uzaqda yerləşsə də, Argentina ilə təbiət, tarix və coğrafi baxımdan əlaqəli olsa da, ingilislər adanın vətən torpağı olduğunu, oranı ilk olaraq özlərinin kəşf etdiklərini və adalarda məskunlaşmanın təbii haqları olduğunu qeyd edirlər. 100 ildən çoxdur ki, diplomatik və siyasi cəhdlər edərək, adalardaki haqlarını tələb edən Argentina isə bu cəhdlərdən heç bir nəticə əldə etməmiş və siyasi təşəbbüslərdə həmişə İngiltərəyə məğlub olmuşdur.

## 1.2 Folklend müharibəsinin səbəbləri və müharibə tərəfləri arasında qüvvələr nisbəti

Argentina və İngiltərə arasındaki münasibətlərin öyrənilməsi sahəsində təcrübəli mütəxəssis olan Nikanor Kosta Mendesin 1966-cı ildə Argentinanın Xarici İşlər Naziri olaraq təyin olunması danışıqların Argentinanın istəklərinə uyğun davam etməsinə səbəb oldu. İki ölkə arasında danışıqlar Xarici İşlər Nazirlikləri tərəfindən aparılıb. 1968-ci ildə aparılan danışıqlar zamanı İngiltərə höküməti ada üzərində hakimiyyətin Argentinaya təhvil verilməsini az qala qəbul etmişdi, lakin xarici işlər

nazirinin parlamentdə qarşılaşdığı muxalifət onun qərarını yenidən gözdən keçirməsinə səbəb oldu (51, s 19-20).

Folklend lobbisi meydana çıxmamışdan əvvəl 1966-cı ildə Nikanor Kosta Mendesin səyləri ilə Argentina Xarici İşlər Nazirliyinə bağlı "Instituto y Museo Nacional de las Islas Malvinas y Adyacencia" adlı muzey yaradıldı (51, s 17). Milli muzey, eyni zamanda kitabxana olan bu qurumun məqsədi məsələ ilə bağlı məlumat və sənəd toplamaq, Argentina xalqının milli şüurunu inkişaf etdirməyə çalışmaq idi.

İngiltərədə isə Yeni Argentina Hərəkatına daxil olan bir qrup gəncin 28 sentyabr 1966-cı il tarixində adanı İngiltərədən azad etmək üçün Argentinadan təyyarə qaçıraraq, adaya enməsi ilə ictimaiyyət münaqişədən xəbərdar oldu. Bu təyyarə qaçırma halı Argentina hökümət səlahiyyətliləri tərəfindən birmənalı qarşılanmasa da, Peronist birlik konfederasiyası və xalq tərəfindən yüksək qiymətləndirilmişdir. Hətta Peronist birlik konfederasiyası bu gənclərin cəzalandırıldıqları təqdirdə 24 saatlıq tətil keçirəcəklərini də bildirdi (51, s 18). Bu isə Argentina xalqının Folklend probleminə yanaşmasını görmək üçün əhəmiyyətli idi.

1967-ci ildə suverenlik mövzusunda Argentinanın istəyinə uyğun olan bir razılaşma əldə ediləcək kimi görünürdü. Ada sakinləri istəyərsə, hakimiyyətin Argentinaya verilməsi məsələsi ilk dəfə müzakirə olunurdu. Argentina səlahiyyətliləri adada hakimiyyətin onlara veriləcəyi halda, ada sakinlərinin yaşayış tərzinin dəyişməyəcəyinə və onları müstəmləkə kimi görməyəcəklərinə zəmanət verirdi (51, s 18; 25, s 12).

İngiltərə xarici işlər naziri Lord Kalfont Folklend adasına səfər edən ilk ingilis nazirdir. Ona 1968-ci ilin noyabr ayında etdiyi səfərdə Argentina və İngiltərə arasında bağlanacaq müqavilənin şərtləri barədə ada sakinlərinin məlumatlandırılması tapşırıldı. Bu müqaviləyə görə, müəyyənləşdiriləcək tarixdən etibarən adanın hakimiyyəti Argentinaya veriləcək, ancaq İngiltərə hököməti ada sakinlərinin maraqlarını qorumaq üçün nəzarətə davam edəcəkdi. Lord Kalfont eyni zamanda ada sakinlərini Argentina ilə qurulan əlaqələrin üstünlük təşkil edəcəyinə inandırmağa çalışsa da, uğursuz olmuş, bu fikrə etiraz edilmişdir. Ada sakinləri İngiltərə

hökümətini, xüsusilə Xarici İşlər Nazirliyini vətənə xəyanət etməkdə ittiham etdilər. Kalfontun üzləşdiyi etirazlar İngiltərə parlamentində müzakirə olunduqdan sonra, 1968-ci ildən Argentina ilə olan danışıqlarda ada sakinlərinin istəklərini prioritetləşdirməyə başladı (26, s 17; 35, s 2; 37, s 4-5).

Artıq 1968-ci ildən İngiltərə Argentinanın istəklərinə demək olar ki, məhəl qoymurdu. Argentina bu dəyişən rəftar qarşısında fərqli diplomatik yollar sınasa da, uğursuz oldu. Bu uğursuzluqda Folklend şirkətinin üzvləri də daxil olmaqla meydana çıxan lobbi fəaliyyətinin böyük rolu vardır.

Folklend lobbisi 1920-ci ildə Folklend adasına yerləşmiş Artur Bartonun rəhbərliyində 25 mart 1968-ci ildə ada sakinlərinin istəklərini səsləndirmək məqsədilə yaradılan bir qrupdur. Barton eyni zamanda "Folklend Ada" şirkətinin təqaüdçü bir üzvü idi. Lobbinin yaranmasında BMT Baş Assambleyasında qəbul edilən qərarların Argentinanın lehinə olmasının da təsiri var idi. Lobbinin məqsədi adada hakimiyyət məsələsini danışıqlardan əvvəlki hala qaytarmaq idi (19, s 11).Bu lobbinin qurulmasının əsasında İngiltərə hökümətinin adanın suverenlik haqlarının Argentina dövlətinə verilməsinə mane olmaq fikri vardı (40, s 86-87).

Folklend lobbisinə görə ada sakinlərinin mənfətinin qorunması kifayət deyildi, eyni zamanda onların istəklərinin nəzərə alınması lazım idi. Lobi bu baxımdan İngiltərə və Folklend adası arasında iqtisadi, mədəni və hərbi əlaqənin qurulması və inkişafı üçün səy göstərmişdir. Folklend lobisini quran üzvlərin bir qismi eyni zamanda Folklend Ada şirkətində pay sahibləri idi.

İngiltərə Xarici İşlər Nazirliyi ada sakinlərinə suverenlik hüququnun Argentinaya verilməyəcəyini açıqlayarkən, Argentina hököməti ilə bu mövzuda danışıqları davam etdirirdi. Bu hal ada sakinlərinin İngiltərəyə olan inamını sarsıtdı. Bu müddətdə Folklend lobbisinin ən mühüm uğuru adanın iqtisadi inkişafının İngiltərə üçün nə dərəcədə əhəmiyyətli olmasının müzakirə edilməsi olmuşdur.

Geniş əraziyə malik Folklend adasının torpağının böyük bir hissəsi "Folklend Ada" Şirkətinə aid idi. Bu şirkət 1850-1851-ci illərdə qurulmuşdu. O, adadaki

nəqliyyat, rabitə, balıqçılıq sənayesi, kənd təsərrüfatı və ixracata nəzarət edirdi (35, s 61).

Ada sakinlərinin əsas məşğuliyyət sahəsi qoyunçuluq idi. İstehsal olunun yun İngiltərəyə ixrac edilirdi, İngiltərədə yun qiymətləri və inflyasiya adada iqtisadi həyatı formalaşdırırdı. "Folklend Ada" şirkəti adada istehsal olunan malları satıb, böyük gəlir əldə etsə də, ada sakinlərinin ehtiyacları üçün heç bir investisiya qoymurdu (62, s 3).

Folklend adasında əhali sayının artırılması üçün uğurlu siyasət aparılmadı. 1945-ci ildə adada əhali sayı 2239 nəfər, 1976-cı ildə isə 1957 nəfər olmuşdur. Bu azalmanın səbəbi İngiltərəyə və ya Avstraliyaya daha yaxşı maaş və yaşayış tərzi üçün köç edən işçilər idi. Adaya gələnlərin torpaq sahibi ola bilməməsi və ordaki maaşlarının az olması səbəbindən köçün qarşısı alına bilməmişdir. 1976-cı ildə təqdim edilən Şakleton Hesabatına əhali artımı ilə bağlı problemlər də daxil edilmişdir (35, s 62).

Ada əhalisinin sayının artırılmasındaki çətinliklər Argentinanın köməyi olmadan adanın inkişaf edə bilməyəcəyi fikrini gücləndirdi. Ada hakimiyyətinin Argentinaya verilməsinin müxtəlif vaxtlarda müzakirə edilməsi səbəblərindən biri də bu idi.

İngiltərə höküməti tərəfindən təyin edilən Ser Geoffrey Miles Clifford 1946-1954-cü illərdə arasında Folklend qubernatoru oldu. O, həmçinin adanın iqtisadi inkişafı, üçün də məsuliyyət daşıyırdı. Müstəmləkə idarəçiliyində heç bir təcrübəsi olmayan Clifford sadəcə adadaki sosial xidmətləri təkmilləşdirə bildi. Onun hakimiyyəti dövründə elektrik stansiyası, yeni bələdiyyə binası, xəstəxana, kinoteatr və təhsil mərkəzi kimi müəssisələr tikildi.

"Folklend Ada" şirkətinin idarə heyətindən olan Antoni Hurd adadaki inkişafı surətləndirmək üçün İngiltərə Xarici İşlər Nazirliyinə bir hesabat təqdim etdi. Bu hesabatda diqqət çəkən əsas hissə adanın inkişafı üçün Stanley və Uruqvay arasıda hava yolu xəttinin açılmasını tələb etməsi idi. Eyni zamanda, hava limanının mövcudluğunun gələcəkdə adanın müdafiəsinin çətinləşəcəyi ehtimalı da var idi.

“Folklend Ada” şirkəti bütün iqtisadi gücü ilə Folklend lobbisinin təşkil olunması və Britaniya ictimaiyyətinin diqqətini cəlb etmək üçün çalışırdı. Argentinanın fikrincə, adanın kiçik əhalisi və coğrafi mövqeyi onların öz müqəddəratını təyin etməsinə mane olurdu. London bu fikri ortadan qaldırmaq üçün təzyiqeedici bir mühit yaratdı. Lobbi və şirkət tərəfindən adadaki iqtisadi inkişafın kənd təsərrüfatı, balıqçılıq və neft axtarışı ilə mümkün olacağını bildirilmişdir. Eyni zamanda bu inkişaf ilə ada sakinləri özlərinə lazım olan iqtisadi sistemi də əldə etmiş olacaqdılar. Lobi bu fəaliyyətləri ilə Argentinanı iddialarından çəkindirmək fikrində idi. İngiltərə və Argentina 1970-ci illərin əvvəlindən etibarən danışıqları Cənubi Atlantikada iqtisadi sərvətlərin necə bölüşdürüləcəyi mövzusunda davam etdirmişdir. Adanın coğrafi olaraq İngiltərədən çox uzaqda olması və Londonun maliyyə çətinlikləri səbəbindən adaya lazımi köməklik göstərilməmişdir. Bu səbəbdən, 1970-ci illərdən etibarən adadaki əsas ehtiyacların ödənilməsi mövzusunda bir sıra addımlar atıldı. Argentina ilə 1969-cu ildə müzakirə edilən və 1971-ci ildə imzalanan Rabitə sazişi bu addımlardan biri idi. Bu sazişə əsasən, ilk növbədə Argentina ilə Folklend adasının paytaxtı Stenli arasında müntəzəm uçuşlara başlamaq planlaşdırıldı. Bu yolla adada yaşayış şəraitinin yaxşılaşdırılması, turizmin canlandırılması, Argentina ilə yeni əlaqələr qurulması nəzərdə tutulurdu. Beləliklə, Argentinanın köməyi ada sakinləri tərəfindən də qəbul edildi (63, s 13), ancaq, Argentinanın yardımı müsbət qarşılansa da, ada sakinləri hakimiyyətin Argentinaya verilməsinin əleyhinə idi. Onların fikrincə, Argentinanın kömək göstərməsi sadəcə siyasi maraqlara əsaslanırdı.

Rabitə sazişində adada yaşayan uşaqların Argentinada təhsil alması qeyd olunurdu. Argentina və Folklend adası arasında sərnişin, poçt və yük daşınması üçün tədbirlər görüldü. Argentinada mal sahibi olan ada sakinlərinin əmlakının təhlükəsizliyi təmin olundu. Ada və Argentina arasında gediş-gəlişə nəzarət Argentinanın nəzarətinə verildi və sərnişinlərə pasportla birgə istifadə edə biləcəkləri “ağ kart” verilməsi nəzərdə tutuldu. 1974-cü ildə bu saziş əsasında argentinalı bir neft şirkətinə Folklend adasında neft və neft məhsulları tədarükü hüququ da verildi.

Daha əvvəl də müzakirə olunan və adanın təhlükəsizliyi üçün uyğun olmayan hava limanının yaradılması ideyası 1972-ci ildə yenidən gündəmə gəldi. Bu saziş çərçivəsində adada hava limanı yaratmaq məqsədilə Argentina və İngiltərə arasında yeni bir əməkdaşlıq başladı. Bu sahədə Argentinadan 40 işçi ilə 900 ton tikinti materialı daşındı. Argentinanın dəstəklədiyi bu hava limanı layihəsi qarşılıqlı fikir ayrılıqları səbəbindən tamamlana bilmədi. Argentina yalnız Argentina və adanın paytaxtı Stenli arasında uçuş planlayarkən, İngiltərə bu hava limanından beynəlxalq xidmət üçün də istifadə etmək istəyirdi. Bu fikir ayrılıqlarının digər bir səbəbi İngiltərənin hava limanı üçün lazım olan maliyyə resurslarını tapa bilməməsi idi. İngiltərə ada suverenliyini saziş əsasında dəyərləndirməmiş, sadəcə olaraq adanın inkişaf məsələsinə üstünlük vermişdir.

Argentina "Şell" şirkətinin filallarından biri olan "Şell Capsa"ya adada neft axtarışı üçün icazə verdi. "Shell Capsa" 1960-1070-ci illər arasında Argentina ilə Folklend arasında olan ərazidə 1.5 milyon dollara başa gələn neft axtarış fəaliyyətini həyata keçirdi (50, s 83). İngilis mənşəli şirkət olan "Şell"ə verilən bu axtarış icazəsi Argentinada bəzi narazılıqlara səbəb oldu. Bu narazılıqların nəticəsində Argentina şirkətlərinin regionda neft axtarışı fəaliyyətini reallaşdıracaq və onlar texnoloji baxımdan inkişaf edənə qədər xarici şirkətlərə neft axtarışına icazə verilməməsini istəmişdir. Başqa bir qrup isə, bu səviyyəyə çatana qədər çox vaxt itiriləcəyini, buna görə də Argentinanın xarici şirkətlərlə razılığa gəlməli olduğunu bildirdi. "Şell" həyata keçirdiyi axtarışlar nəticəsində Argentinanın cənubunda, Folklend adası ətrafının böyük bir hissəsində neft ehtiyatı tapıldı.

İngiltərənin ilk neft axtarışları 1970-ci ildə Birmingham universitetinin Geologiya şöbəsi tərəfindən aparılaraq, 1971-ci ildə nəticələr hökümətə təqdim edildi. Adada neft ola biləcəyini bildirməklə yanaşı, bunun üçün daha hərtərəfli araşdırmaların aparılmasının lazım olduğu da bildirildi. Bu tədqiqat Folklend lobbisinin adadaki iqtisadi potensialdan xəbərdar olmasına kömək etdi. 1970-1975-ci illərdə iki ölkə arasında olan əlaqələr 1971-ci il Rabitə sazişinə və neft axtarış fəaliyyətinə əsaslanırdı. 1975-ci ildə 49 şirkət ada ətrafında neft kəşfiyyatı və hasilatı

ilə məşğul olmaq üçün müraciət etdi. ABŞ, Kanada və İngiltərədən bir çox şirkət icazə üçün Folklend qubernatorluğuna müraciət etdi (40, s 92).

Neft kəşfiyyatı üçün müraciətlərin artmasının Argentina hökümətinin narazılığına səbəb olacağı düşünülürdü. İngiltərə xarici işlər naziri Ceyms Kallaqan o zamanki baş nazir Harold Vilsona yeraltı qaynaqlardan faydalanmağın tək yolunun adanın suverenliyi ilə bağlı məsələdə razılığa gəlmək olduğunu bəyan etdi. Argentina ilə ortaq bir məxrəcə çatana qədər neft axtarış icazələrinin dayandırılması qərarı verildi.

Bu qərardan sonra neft şirkətlərinin İngiltərə hökümətinə olan təzyiqləri getdikcə artdı. Bu şirkətlər İngiltərə və Argentina arasında olan gərginliyin Latın Amerikasındaki bizneslərinə zərər verəcəyindən narahat idilər. Neft şirkətləri və İngiltərə höküməti Argentina ilə əməkdaşlıq etmədən yeraltı sərvətlərdən faydalana bilməyəcəklərini düşündükləri üçün nefti ortaq maraq kimi göstərərək, Argentinaya neft müqaviləsi imzalamağı təklif etdilər, ancaq Argentina adanın suverenlik məsələsinin daxil edilmədiyi bir müqaviləni qəbul etmədi.

ABŞ hökümətinin "Geoloji Tədqiqat" büllütenində Argentinanın kontinental şelfində 200 milyon barel neft olduğu bildirildi. Regiondaki neftin Səudiyyə Ərəbistandan çox olduğu bele düşünülürdü. (50, s 89). 1975-ci ildə iki ölkə arasında neftdən qaynaqlanan gərginliyin başladığı il oldu. Bu gərginliyin başlamasında İngiltərə hökümətinə təzyiq göstərən şirkətlərin də təsiri olub.

Bu gərgin illərdə iki ölkə arasında münasibətə şahid olan dövlət rəsmiləri 1982-ci ildə baş verən müharibənin də neft səbəbindən baş verdiyini düşünürdülər. Adadaki neftin mövcudluğu və dəyəri ictimaiyyətə açıqlandıqdan sonra İngiltərənin neft axtarışları Argentina xalqının "təbii sərvətlərinin oğurlaması" kimi qəbul edildi.

M. Tetçerin hakimiyyətə gəldiyi dövrdə regiondaki neft ehtiyatlarından faydalanmaq üçün Folklend adası problemi həll edilməli idi, ancaq 1979-cu ildə həyata keçirilən tədqiqatlar göstərdi ki, neft yataqları Folklend ətrafında deyil, Argentina sahillərindədir. Livingstonun fikrincə, Folklend adası ətrafında neft

tapılması ehtimalı adanın suverenliyinin Argentinaya verilməsi ilə bağlı danışıqların təxirə salınmasına səbəb oldu (57, s 209-210).

Şakleton Hesabatı İngiltərənin Folklend höküməti və Folklend şirkəti arasındaki əlaqələri ələ almaq üçün reallaşdırdığı ilk sosial-iqtisadi tədqiqat oldu. Hesabatın hazırlanmasında məqsəd adanın inkişafı üçün lazım olan Britaniya yardımının həcmini müəyyən etmək idi (40, s 93). 1976-cı ildə Lord Şakleton və onu müşayiət edən komandanın apardığı araşdırmalara görə, adanın inkişafında neftin rolu böyük olacaqdır. Nefti çıxarmaq üçün alətlər və texnologiya yetərli olmadığı üçün o, gizli bir xəzinə kimi görünməkdə idi. Şakletonun fikrincə, adadki neft ancaq 20-25 il müddətində əlçatan olacaqdı.

Tədqiqatın nəticəsində hazırlanan hesabatda bəzi təkliflər də var idi. Adada gəlirin balıq ovçuluğu, qızılbalıq yetişdirilməsi, torpaqların yaxşılaşdırılması, yosun istehsalı, turizm və neft ilə şaxələndiriləcəyi düşünülürdü. Ən mühüm və bahalı təklif isə hava limanının inkişafı və genişləndirilməsi idi. Başqa bir təklif isə adalardakı torpaqların əksəriyyətinə sahib olan "Folklend" şirkətinin bu torpaqları ada sakinlərinə uyğun şəkildə bölüşdürməsi idi.

Bu hesabatın nəticəsi ilə bağlı gözləntilər müxtəlif idi. Xarici İşlər İdarəsi adanın suverenliyinin Argentinaya verilməsini asanlaşdırmaq üçün yeni bir qərar gözləyərkən, Folklend lobbisi və "Folklend Ada Şirkəti" adaların iqtisadi potensialının Britaniya hökumətinin diqqətini cəlb edəcəyini ümid edirdi. Düşünürdülər ki, bununla adaların suverenliyinin Argentinaya verilməsi ilə bağlı müzakirələrə son qoyulacaq. "Folklend Ada Şirkəti"nin fəaliyyəti Şakleton hesabatında tənqid edilib, çünki bu şirkətin adadan əldə etdiyi gəlir Londonda qiymətləndirdi və o, 1951-1974-cü illər arasında adaların inkişafı üçün xərclədiyi puldan qat-qat artıq qazanc əldə etmişdi. Dillona, görə şirkət adada müstəmləkə administrasiyası qurmuşdu və feodal bir cəmiyyət yaratmışdı. 1978-ci ildə "Sunday Times" qəzetinin müxbiri adaları ziyarət etdi və Folklend adalarını "şirkət adaları" olaraq adlandırdı, çünki "Folklend Ada Şirkəti" bütün iqtisadi fəaliyyətlərdə dominant rol oynayırdı.

Şakleton Hesabatında, vəzifəyə başlayan Britaniya səlahiyyətlilərinə qarşı olan tənqidlər də müzakirə mövzusu idi. Bu hökumətlərin adalarda əhalinin ehtiyaclarına əhəmiyyət verməmələri də onlardan biridir. Adaların ehtiyaclarının nəzərə alınmamasının səbəbi ada sakinlərinə Argentinanın köməyinə ehtiyacları olduğunu qəbul etdirmək fikri də ola bilərdi. Həm hökumətin tapşırığı ilə aparılan araşdırmalar, həm də iqtisadi və siyasi proseslər Argentina ilə əməkdaşlığın adaların inkişafı üçün həmişə zəruri olduğu fikrini gücləndirdi.

“Folklend adaları şirkəti”nin adalardakı nəqliyyat üzərində inhisarından əl çəkmədiyi təqdirdə, adalarda yeni kommersiya müəssisəsinin yaranmasına mane olmaq təhlükəsi də hesabatda yer almışdı. Bu hesabata görə, torpaqların şirkətə aid olmasının yeganə üstünlüyü, argentinalıların adalara nəzarətsiz immiqrasiyasının qarşısını alması idi. Britaniyanın xarici işlər naziri Antoni Crossland Britaniya hökumətin Folklend adasının iqtisadi potensialını qəbul etdiyini, lakin Şakleton Hesabatında təqdim olunduğu kimi, tələb olunan investisiyalar üçün büdcə ayıra bilmədiyini bildirdi.

Şakletonun iqtisadi vəziyyəti araşdırmaq üçün adalara səfəri ada sakinlərinin ümidlərini artırsa da, İngiltərə ilə Argentina arasında danışıqları çətinləşdirdi. Bu səfər argentinalı millətçilər tərəfindən qəzəblə izlənildi və İngiltərəyə qarşı bəzi sanksiyaların tətbiq olunmasının müzakirəsinə səbəb oldu.

1976-cı il Şakleton Hesabatı Folklend adasının Britaniya müstəmləkəsi olaraq qalacağı düşüncəsi ilə hazırlanmışdır. Bu hesabatdan sonra Folklend lobbisi adadakı insanlar adından İngiltərədə ictimaiyyətlə əlaqələr kampaniyası keçirməyə qərar verdi. İngiltərədə adaların iqtisadi inkişafını təmin etmək və dəstəkləmək üçün 1977-ci ildə “Folklend Adası Tədqiqat və İnkişaf Assosiasiyası” yaradıldı. Bu assosiasiyanın əsas məqsədlərindən biri adada İngiltərənin maraqlarını qorumaq idi.

1977-ci ildə baş verən digər bir hadisə İngiltərənin Vestminster şəhərində "Folklend Adası İdarəsi"nin açılması oldu. Bu idarə də çalışan ictimaiyyətlə əlaqələr üzrə məsləhətçilər Şakleton hesabatının yerinə yetirilməsini təmin etmək üçün ictimai işlər həyata keçirir, siyasətçi və sənayeçilərlə ünsiyyət quraraq, bu məsələni

ictimaiyyətə çatdırmaq üçün hərtərəfli təkliflər verdilər. Bu idarə 1979-cu ildə 2000-dən çox məktub və 6000 broşür nəşr etdirdi və media ilə sıx əlaqə qurdu (40, s 96).

Folklend lobbisi tərəfindən həyata keçirilən bu təklif və kompaniyaların təsiri ilə "Folklend Ada" qəzetinin 1979-cu ilin iyun buraxılışında Folklend adaları üçün "İngiltərənin Yeni Şimal dənizi" kimi ifadələr yer aldı. Çünki neft sənayesi və balıqçılığın inkişafının əvvəlcə adaya, sonra isə Britaniya iqtisadiyyatına fayda verəcəyi düşünülürdü. Folklend lobbisi parlamentdə Britaniya siyasətinə təsir etmişdi. Lobbi İngiltərədə olan 3 böyük siyasi partiyanın dəstəyini qazanmışdı (37, s 18).

Folklend lobbisinin dəstəyi ilə qurulan "Folklend Adası Tədqiqat və İnkişaf Dərnəyi", müstəmləkə administrasiyası tərəfindən etibarsız olaraq dəyərləndirildi. Folklend Adası hökumətinin Folklend lobbisi tərəfindən qurulan, mərkəzi İngiltərədə olan Folklend idarəsinin maddi sıxıntılarına kömək etmək istəməməsi də, belə düşünməyə vadar edirdi.

1860-1910-cu illər arasında Avropadan Argentinaya böyük köç həyata keçirildi. Bu köçün səbəbi 1860-cı ildən sonra beynəlxalq ticarətin əhəmiyyət qazanmasıdır. 1914-cü ildə aparılan siyahıyaalmada ölkədəki vətəndaşların 63%-nin doğulduğu yerin başqa ölkəyə aid olduğu müəyyən edilib. Birinci Dünya Müharibəsi (1914-1918) dövründə bu köç azalsa da, sonralar eyni sürətlə davam etmişdir. Argentinanın hazırda əhalisi 45 milyondan çoxdur.

Argentina geniş və münbit torpaqları sayəsində ən qabaqcıl kənd təsərrüfatı və heyvandarlıq ölkəsi idi. O qədər ki, 1920-ci illərdə adambaşına düşən milli gəlirə görə dünya iqtisadiyyatları arasında ilk 10 ölkə arasında idi, lakin Argentina növbəti 60 il ərzində inflyasiya və iqtisadi artıma görə geriləmiş, durğunluğun hökm sürdüyü ölkələrdən birinə çevrilmişdir (11, s 106).

İngiltərə Argentinanın müstəqilliyini 1825-ci ildə tanıdı (8, s 47). Böyük Britaniyanın Argentina iqtisadiyyatına mühüm töhfəsi var. Argentinanın müharibə görməmiş bir ölkə olması Britaniya investisiyalarının burada artmasında ən əsas amildir. Dünyanın mühüm taxıl və ət istehsalçılarından biri olması İngiltərənin

Argentina ilə əlaqələrini o qədər yaxşılaşdırdı ki, 1946-cı ildə İngiltərə Xarici İşlər Nazirliyi tərəfindən edilən açıqlamada Argentina bazarının itirilməyəcək qədər vacib olduğunu bildirdi. İngiltərənin Argentinada ilk kapitalist dövlətlərdən biri olması da bu ölkədə ingilis maraqlarının müdafiəsini asanlaşdırdı. 1914-cü ildə reallaşdırılan bir tədqiqata görə, İngiltərədən sonra ən çox ingilis Argentinada idi (29, s 67).

Argentinada 1913-cü ilə qədər tikilən dəmir yollarının 60%-nin İngiltərə investisiyaları ilə yaradıldığı bildirilir (40, s 63). Tikdikləri dəmir yollarının inkişafı ilə paralel olaraq, ingilislər xüsusilə kənd təsərrüfatı istehsalının artmasına töhfə verdikləri üçün Argentinanın iqtisadiyyatı və siyasətində iştirak etmək imkanı əldə etdilər. 1860-1930-cu illər arasında Argentinada adambaşına düşən gəlirin İtaliyadan 50%, Yaponiyadan isə 180% yüksək olduğu bildirilir (64, s 49).

Argentinada dəmir yollarının Britaniyaya məxsus olması Argentina millətçiləri üçün xoşagələn bir vəziyyət deyildi. 1947-ci ildən 30.000 km dəmir yolunun milliləşdirilməsinə dair tədqiqatlar aparılsa da, bu tədqiqat İngiltərə və Argentina arasında iqtisadi və siyasi əlaqələrin korlanmasına səbəb oldu (40, s 128). İş o yerə çatmışdı ki, kömürə olan ehtiyacının böyük hissəsini İngiltərədən qarşılayan Argentina 1947-ci ildə və ondan sonra bu ehtiyacın 95%-ni Amerika və Afrika ölkələrindən qarşılamağa başlayıb.

1956-cı ildə İngiltərənin Argentinadakı səfiri Argentina ilə münasibətlərdə ən təsirli iqtisadi və siyasi faktorun Antarktida və Folklend (Malvin) adaları olduğunu bildirmişdir. Argentinada ada xalq üçün milli əhəmiyyət kəsb edirdi. Xuan Domingo Peron və təhsil sistemi buna təsir etdi. Folklend adalarının xəritələrdə və möhürlərdə Argentina ərazisi kimi göstərilməsi tələb olunurdu. Adaların tarixi gənc nəslə tarix və coğrafiya dərslərində “Malvinasın ingilis quldurlarından geri alınması" ideyası aşılanırdı. Bu yanaşma ali təhsildə də qorunub saxlanılmışdır.

Xuan Dominqo Peronun Folklendlə (Malvin adaları) bağlı siyasəti adaları təcrid etmək məqsədi daşıyırdı. Çili və Uruqvayın hər birinin adada nümayəndəliyinin olması Peronun təzyiqlərini bu ölkələrə yönəltməsinə səbəb olmuşdu. Həm adalara, həm də qonşu ərazilərə təzyiq etmək planlaşdırılırdı.

Monteviedo və Stanley arasında planlaşdırılan uçuşların şərtlərini müəyyən edən İngiltərə ilə Uruqvay arasında imzalanan "Hava Nəqliyyatı Müqaviləsi" 1952-ci ildə Argentina tərəfindən etirazla qarşılandı.

Argentina və Folklend adaları arasında qarşılıqlı əlaqəni artırmaq üçün 1971-ci ildə imzalanmış müqavilə iki ölkə arasında danışıqların yumşalmasına səbəb oldu. Argentina, ada sakinlər istədikləri təqdirdə onlara vətəndaşlıq, insan hüquqlarına və şəxsi mülkiyyətə hörmət, ingilis dilindən davamlı istifadə, vergi və hərbi xidmətdən azad olmaq kimi imtiyazlar verəcəyini bəyan edib. Bu dövrdə suverenlik məsələsindən başqa ümumi kondominium ideyası da ön plana çıxdı. Ümumi kondominiuma görə, ada sakinlərinə ikili vətəndaşlıq veriləcək, adada iki rəsmi dil olacaq və iki bayraq dalğalanacaqdı. Ancaq birgə idarəetmə ideyası cəmi səkkiz ay gündəmdə qaldı və onun həyata keçirilməsində çətinliklər nəzərə alınaraq, icarə təklifi ilə əvəz olundu (60, s 26; 26, s 18-19) 1973-1975-ci illər, Peronun sürgündən qayıtmasının təsiri ilə Argentinanın adaları işğal edə biləcəyinə dair narahatlıqların artdığı bir dövr oldu.

Hərbi çevrilişlər Argentinanın siyasi tarixində mühüm yer tutur. Xuan Dominqo Peron 1973-cü ildə yenidən prezident seçilmiş, 1974-cü ildə vəfat etmişdir. Ölümündən sonra həyat yoldaşı İzabel Martinez de Peron Argentinanın prezidenti seçildi, lakin iqtisadiyyatın və siyasi vəziyyətin pisləşməsinə görə Peron və peronizmi günahlandıran Argentina ordusu 1976-cı il martın 24-də idarə etməni ələ keçirdi. Komandir Xorxe Rafael Videlanın komandanlığı altında admiral Emilio Massera (dəniz donanması) və briqada generalı Orlando Aqosti (hava qüvvələri) dövlətin başçıları oldular (52. s 214).

Hərbi xunta hakimiyyətə gələndən sonra idarə etmə xunta üzvləri arasında ölkənin idarəsini demək olar ki, bərabər bölündü. Odlu Torpaq Cənubi Atlantika, Pataqoniya, Antarktida və Malvinas (Folklend) arxipelağı Argentina donanmasının məsuliyyəti altında qaldı, lakin 1977-ci ildən sonra donanma və hava qüvvələr arasında rəqabət yarandı (48, s 121-122; 51, s 46).

Argentinada komandir Videla dövründə 1983-cü ilə qədər davam edəcək "Milli Yenidənqurma Prosesi" adlı ağır bir dövr başladı. Siyasi fəaliyyət və sosial hüquqlar dayandırıldı. İqtisadi siyasətə yenidən baxıldı və Peronun ölkə maraqlarını müdafiə edə bilmədiyi iddia edilərək Peronist dövlət anlayışından tamamilə uzaqlaşdırılmağa çalışıldı. Ölkənin mədəni və iqtisadi strukturunun tamamilə dəyişdirilməsinə çalışılırdı. Argentinanın yeni milli təhlükəsizlik doktrinası buna uyğun formalaşdırıldı. Ölkə üçün ən böyük təhlükənin solçu ideologiyaların və inqilabçı qrupların olduğu bildirildi. ABŞ-ın bu dövrdəki siyasəti də buna bənzəyirdi. Bu vəziyyət ABŞ və Argentina arasında kommunizmə qarşı ittifaqın qurulmasına səbəb oldu ( 8, s 63).

ABŞ və Mərkəzi Kəşfiyyat İdarəsi Latın Amerikasındakı orduların komanda heyətinə psixoloji müharibə üsulları, anti-partizan müharibəsi və sorğu-sual üsulları üzrə təlim keçirdi. “Çirkli müharibə” adlanan prosesdə Argentina ordusu tez-tez bu təlimlərə müraciət edirdi. Bu dövrdə döyüşən əsgərlərə tətbiq edilən işgəncə üsulu normal hal sayılırdı. Milli yenidənqurma prosesinin səciyyəvi xüsusiyyəti ordunun siyasi bir milli hökumət formalaşdırdığına inam idi. Bu səbəbdən də ordu xarici siyasətində effektiv olmağa çalışırdı.

“Çirkli müharibə” adlanan dövr Argentinanın ən qanlı dövrlərindən biri idi. Argentina xuntası 1970-ci illərdən bəri ölkədə fəaliyyəti artan solçu qruplara və partizanlara qarşı şiddətli mübarizə aparırdı. Hərbi xunta peronist liderlər, həmkarlar ittifaqı üzvlərindən başqa, müxalif tələbələr, siyasətçilər, jurnalistlər və ruhanilərlə mübarizə aparırdı. Argentina donanmasının komandiri Emilio Massera həmin dövrdə donanmanı ayrı hərbi güc halına gətirərək, hava birliyini yaratdı. Hərbi xuntanın solcu qruplara qarşı başlatdığı “Çirkli müharibə”da dəniz hərbi məktəbi zorakılıq mərkəzlərinin ən məşhurlarından idi. Bu məktəb daha sonra, rejimin nə dərəcədə qanlı olduğunun göstərilməsi üçün muzeyə çevrilmişdir (51, s 31).

“Çirkli Müharibə” zamanı minlərlə insan təhlükəsizlik qüvvələri tərəfindən qaçırılmış və ya həbs edilmiş, ölkə daxilində yaradılmış gizli düşərgələrdə işgəncələrə məruz qalmışlar. Cəsədlər ya okeana atılır, ya da kütləvi məzarlıqlarda

basdırılırdı. Bu dövrdə can itkisi 9000-30000 arasında dəyişirdi. Argentinada insan haqlarının pozulması böyük böhrana səbəb oldu. 1977-ci ildə itkin düşənlərin analarının yaratdığı "Plaza de Mayo Anaları" hər cümə axşamı toplaşaraq, etiraz edirdilər. Hərbi xunta hətta insan hüquqlarının pozulması nəticəsində yaranan böhranın mənfi təsirini azaltmaq üçün ABŞ və Avropada ictimaiyyətlə əlaqələr qurmağa çalışırdı.

Argentina ordusunun gücünün artması həm İngiltərənin, həm də Folklend adasının siyasətinə təsir edirdi. 1976-cı ildə Argentinanın "Almirante Storni" hərbi gəmisi Folklend sularında olduğu bildirilən İngiltərə tədqiqat gəmisi Şakleton-a hücum etdi. Bu hadisə Britaniyanın etirazı ilə qarşılandı, lakin Buenos Ayres hökuməti hadisənin öz sərhədləri daxilində baş verdiyini bildirərək, ittihamdan yayındı. Bu hadisə diplomatik münasibətləri qırılma nöqtəsinə gətirdi (9, s 3; 13, s 769). Digər bir hadisə isə, Argentina kontingentinin 1976-cı ilin noyabrında Cənubi Tule arxipelaqına icazəsiz daxil olaraq, orada qarnizon yaratmasıdır. İngiltərə Argentina qarnizonundan dekabr ayında xəbərdar oldu. London məsələ ilə bağlı Argentinay sorğu göndərmiş, cavabında isə Argentina hökuməti bildirmişdi ki, regiondakı birlik yalnız elmi məqsədlərlə fəaliyyət göstərir. Britaniya hökuməti bu hadisəni 1977-ci ilə qədər gizli saxladı və May ayında Cənubi Tuledə Argentinanın varlığını rəsmən tanıdığını elan etdi (26, s 21). Bu iki hadisəyə görə Argentinanın adaları işğal etməsinə qarşı alınacaq tədbirlər İngiltərədə müzakirə edilməyə başlandı. İngiltərə ilə Argentina arasında adaların suverenliyi ilə bağlı davam edən danışıqlarda İngiltərə iqtisadi əməkdaşlığa diqqət yetirərkən, Argentina adaların suverenliyi məsələsini gündəmdə saxlamağa çalışırdı.

Folklend münaqişəsinə baxmayaraq, İngiltərə Argentinaya silah satmağa davam edirdi. İngilis şirkəti “Vikers” Argentina Hərbi Dəniz Qüvvələri ilə 1970-ci ildə 2 ədəd ”Tip 42” qırıcısının tədarükü üçün müqavilə imzaladı. Bu gəmilərdən birincisi “Vikers Barrow” tərsanəsində tikilmiş və 1977-ci ildə Argentina Hərbi Dəniz Qüvvələrinə təhvil verilmişdi. Argentina limanlarında ingilis mühəndislərinin köməyi ilə inşa edilən ikinci gəmi Tetçerin baş nazirliyi dövründə Argentina

donanmasına təhvil verilib. Bu gəmilər Folklend müharibəsində də İngiltərəyə qarşı istifadə edilib (57, s 146).

İngilis istehsalçısı "Vosper Thorneycroft" tərəfindən Argentina donanması üçün planlaşdırılan altı döyüş gəmisi üçün danışıqlar 1976-1978-ci illər arasında davam edirdi. Bu prosesdə Britaniyanın məqsədi müqavilənin ratifikasiyasını təmin etmək idi (57, s 133).

İnsan haqlarının pozulmasına və Folklend adası ilə bağlı narazılığa baxmayaraq, Argentinaya silah satışının davam etməsi İngiltərədə əks reaksiya ilə qarşılandı. Bəzi millət vəkilləri silah satışının məşğulluq yaradacağı fikrini müdafiə etsə də, verilən reaksiyalardan sonra satışlara məhdudiyyətlər qoyuldu. Müdafiə Nazirliyi Folklend adalarına qarşı istifadə oluna biləcək avadanlıqların satışına icazə verməmək qərarına gəldi, lakin bu məhdudiyyətlərin satışa ciddi ziyan vurduğu bildirildikdən sonra onlar yumşaldıldı. Argentinaya silah satışları Tetçer hökuməti tərəfindən də davam etdirilirdi (57, s 151-153).

İngiltərə Folklend adalarının işğalına qədər Argentinaya qarşı heç bir embarqo tətbiq etmədi. Beləliklə, Argentinanın digər silah alverçiləri ilə razılaşmasının qarşısı alındı. Argentinaya yeni silah satışı ilə bağlı danışıqlar adanın işğalına bir həftə qalana qədər davam etdi. İngiltərə bildirdi ki, münaqişənin qızışdığı günlərdə bir neçə təyyarənin Argentinaya satılması onun hərbi gücünə təsir etməyəcək, lakin planlaşdırılmış sifarişlərin ləğvi növbəti silah satışlarına mənfi təsir edəcək.

1976-1982-ci illər arasında İngiltərədə liderlər Folklend adasında hakimiyyətin Argentinaya verilməsi məsələsinə idarəçiliyin İngiltərədə qalması şərti ilə razılıq verirdilər. Eyni zamanda, danışıqların davam etdirilməsi Argentinanın hərbi təhlükəsindən yayınmağın yeganə yolu kimi görünürdü, çünki İngiltərə Argentinanın mümkün işğalına qarşı özünü müdafiə edəcək maddiyyata sahib deyildi. Buna görə də, Britaniyanın Argentina ilə adanın suverenliyi ilə bağlı danışıqlara hazır göründüyü müddətdə hərbi təhlükə və gərginliyin azalacağına inam vardı.

Bruniyə görə, (26, s 14-16) Britaniya da imperiya anlayışından əl çəkmək və iqtisadi cəhətdən sərfəli olmayan ərazilərdən azad olmaq istəyirdi, lakin digər

müstəmləkə torpaqlarından fərqli olaraq, Folklend adasında yaşayan xalq müstəqillik tələb etmir, əksinə, İngiltərəyə sadiq qalmaq istəyirdi. Həm işçiləri, həm də mühafizəkar partiya hökumətlərini çətin vəziyyətə salan və Argentina ilə suverenlik danışıqlarının yekunlaşmasına mane olan da bu idi. Argentina adadaki suverenlik tələblərinə nail olmaq istəyərkən, İngiltərə höküməti ada sakinlərini buna razı salmağa çalışırdı. Argentina donanması adanın suverenliyinin Argentinaya verilməsi ilə bağlı israrlı mövqe tutmağa başladı. İngilis kəşfiyyatının əldə etdiyi məlumata görə, Argentina donanması 1981-1982-ci illər arasında Argentinanın Folklend siyasətinə aqressiv təsir göstərirdi. Bu vəziyyət məlum olduğu üçün suverenlik danışıqları gərginliyi azaltmaq üçün bir vasitə olaraq, istifadə olunmağa başlandı.

Folklend adaları Argentina ilə böhrana səbəb ola biləcəyinə baxmayaraq, Britaniya hökuməti üçün prioritet məsələlərdən olmayıb. İngiltərə 1974-1979-cu illər arasında ölkədəki problemlərin həllinə üstünlük verirdi. İşsizlik və inflyasiyadan başqa, Avropa siyasəti, nüvə enerjisi müzakirələri və Rodeziya məsələsinin həlli kimi problemlər İngiltərənin diqqətini Folklenddən yayındırdı (37, s 218-229)

Mühafizəkarlar Partiyasının lideri Marqaret Tetçer 1979-cu ildə hakimiyyətə gəldi. İqtidara gəldikdə, yüksək inflyasiya və işsizlik səbəbindən ciddi sosial narahatlıqla üzləşdi. Bu dövrdə milli şirkətlərdə özəlləşdirmələr, sosial xidmətlərə və təhsilə ayrılan büdcədə məhdudlaşdırmalar aparıldı. 1982-ci ilə qədər işsizlərin sayı 3,6 milyon nəfərə çatmışdı (18, s 39). 1979-1982-ci illər arasında həyata keçirilən siyasət İngiltərə iqtisadiyyatında dərin tənəzzülə səbəb oldu. Narazılıqların səbəb olduğu ictimai nümayişlər zorakılıqla yatırıldı.

İngiltərənin iqtisadi vəziyyəti ilə yanaşı, Folklend adasının tərk edildiyini düşündürən başqa hallar da var idi. Bu hadisələr Argentinanın adanı işğal etmək qərarına təsir etdi. 1981-ci il Britaniya Vətəndaşlıq Qanununun qəbul edilməsi ilə adalarda yaşayan Britaniya vətəndaşlarının statusunu müəyyən etmək və adalardan İngiltərəyə immiqrasiyanı məhdudlaşdırmaq istənilirdi. Bu qanun Folklend sakinlərinə tam vətəndaşlıq vermirdi. 1981-ci ildə çıxarılan bu qanuna görə, Folklend sakinləri "Britaniyadan kənar Torpaqlarının Vətəndaşı" adlandırıldı və İngiltərəyə

birbaşa giriş və ya yaşamaq icazəsi almaq üçün valideynlərinin Britaniya vətəndaşı olmaları tələb edildi (37, s 18). Buna görə də adalardakı 1800 nəfərdən 1200-ü tam vətəndaşlıqdan məhrum edilib (26, s 27).

Digər mühim hal, 1981-ci ildə Müdafiə Naziri Con Nott tərəfindən təklif edilən Kral Donanmasının demək olar ki, üçdə birinə təsir edən müdafiə büdcəsinin kəsilməsi idi. Layihəyə görə, donanmadakı bəzi gəmilərin satılması və ya utilizasiyası planlaşdırılırdı. Bu gəmilər arasında "HMS Invincible", "HMS Hermes", "HMS Intrepid" və "HMS Endurance" vardı (10, s 12). "HMS Endurance" əvvəlki hökumətlər tərəfindən Cənubi Atlantikada çəkindirici vasitə kimi yerləşdirilmişdi.

Cənubi Georgiya böhranının yaratdığı gərginliyə görə İngiltərənin bölgəyə başqa döyüş gəmiləri və sualtı qayıqlar göndərməsi ehtimalı gündəmə gəldi. Argentina hərbi xuntası bu baş verməmişdən əvvəl hərəkətə keçmək istəyirdi. Bu, işğal tarixini müəyyən edən hadisə də bu idi. Argentina xuntası, Britaniya sualtı qayıqları bölgəyə çatmazdan əvvəl Folklend adalarına sahib olaraq, diplomatik danışıqlarda daha güclü mövqedə olmaq istəyirdi (19, s 16).

Politoloq Riçard Ned Lebounun fikrincə, İngiltərənin Argentinanın diplomatik tələblərini yerinə yetirmək istəməməsi Argentinanı fərqli bir yol axtarmağa sövq edən əsas səbəb oldu. Argentina eyni zamanda, İngiltərə ilə müharibə riskini nəzərə alaraq, ölkə daxilində vəziyyəti düzəldə bilmək üçün lazımi vaxtı qazanmağa çalışdı.

1980-ci illərin əvvəllərindən Argentina hərbi xuntasının tənqid səbəblərindən biri də, onun əsas vəzifələrindən biri olan adaların suverenliyini müdafiə etməməsidir. Ölkədə "öz xalqına qarşı güc tətbiq etməkdən çəkinməyən ordu niyə İngiltərəyə qarşı güc tətbiq etməkdən çəkindi?" sualı verilməyə başladı. Sonrakı Cənubi Georgiya böhranı Argentina hərbi xuntasına xarici düşmən təhlükəsinə, yəni İngiltərəyə qarşı hərəkətə keçmək imkanı verdi (48, s 124).

Argentinada işsizlik və inflyasiya 1982-ci ildə İkinci Dünya Müharibəsindən sonra ən yüksək səviyyəyə çatdı. Qondarma "Çirkli müharibə"də insan hüquqlarının pozulması hərbi xuntanı həm daxildə, həm də xaricdə çətin vəziyyətə salmışdı. Bu

səbəbdən də xarici düşmən olan ingilislərə qarşı qələbənin insanların bir müddət daxili problemləri unutduracağı gözlənilirdi.

Bu vəziyyət Argentinada nəşr olunan “Conviccion” adlı qəzetində aşağıdakı kimi ifadə edilir. "İndi şərtlər ən yaxşı vəziyyətdədir. Bizim qətiyyətli prezidentimiz və heyrətamiz xarici işlər nazirimiz var. Terrorla mübarizədə qalib gəlsək və Malvinası yenidən əldə etsək, tarix bizim indiyə qədərki axmaqlığımızı bağışlayacaq. Argentinalılar Malvinas adalarına sahib olmadıqca heç vaxt özlərini bir ölkə olaraq bütün hiss etməyəcəklər" (65,s 91). Ada Argentina üçün çox vacib olduğu üçün adalardan diqqəti yayındırmaq istəyən hərbi xunta da öz hakimiyyətini qanuniləşdirmək və qoruyub saxlamaq məqsədi güdürdü.

Birləşmiş Millətlər Təşkilatının yaradılmasından sonra müstəmləkəçiliyə son qoyulması üçün şurada alınan qərarlar komandir Qaltyerinin ingilislərin hərəkətlərini təcavüz və güc tətbiqi kimi şərh etməsinə səbəb oldu. Bu vəziyyət Komandir Galtieri adaların işğalının qismən haqlı sayıla biləcəyini düşünməyə vadar etdi. Çünki Folklend arxipelağı Britaniya koloniyasıdır, lakin Argentinaya görə Argentinanın təbii hissəsidir. Adanın işğalı BMT Təhlükəsizlik Şurasında müzakirə olunarsa, üçüncü dünya ölkələrinin və SSRİ-nin müstəmləkə əleyhinə mövqe tutaraq Argentinanın dəstəkləmələri gözlənilirdi.

Eyni zamanda, HMS Endurance-in bölgədən çıxarılmasının planlaşdırılması İngiltərənin adalara marağını itirdiyi fikrini gücləndirdi . HMS Endurance gəmisinin Cənubi Atlantikadan çıxarılması xəbəri Argentina mediasında İngiltərənin adaları qorumaqdan əl çəkməsi kimi şərh edilib.

Argentina donanmasının komandiri Xorxe Anaya, kral donanmasının əvvəlki gücündə olmadığını düşünərək, bu qədər uzaq məsafəyə gələ bilməyəcəklərini düşünürdü. Bu səbəblərə görə, adanın kiçik bir hərbi qüvvə tərəfindən mühafizə olunmasının Argentinanı adaya hücuma sövq etdiyini də söyləmək olar.

ABŞ-ın neytral qalacağı fikri hərbi xuntanın adaları işğal etmək qərarında təsirli olur. Komandir Galtieri Amerikanın işğala verəcəyi reaksiya barədə bunları deyib: "Mən Ronald Reyqanın təsdiqini və ya dəstəyini gözləmirəm, lakin əminəm

ki, o, balanslı və qərəzsiz çıxışa əməl edəcək". (65, s 90). Galtierinin bu fikrinə Mərkəzi Amerikada kommunizmə qarşı ortaq mübarizədən başqa, Suveyş böhranının da təsirli olduğunu söyləmək olar. 1956-cı il böhranında Amerika İngiltərənin qarşısında dayanmışdı. Hərbi xunta bu səbəblə Amerikanın anti-müstəmləkə bir mövqe tutaraq, İngiltərənin tərəfini tutmayacağını və ya tərəfsiz qalacağını düşünürdü. 1983-cü il Folklend adasının İngiltərə tərəfindən işğalının 150-ci ili olacaqdı. Bu müddət yetişmədən adanı işğal etmək Argentinanın əsas hədəfinə çevrilmişdi.

Cənubi Georgiya böhranı: Folklend adaları və onlardan asılı olaraq adlanan adalar qrupuna daxil olan Cənubi Georgiya Adası, məskunlaşmış bir əhalinin olmamasına baxmayaraq, 1960-cı ilə qədər balina ovu üçün mühüm mərkəz olmuşdur.

Konstantino Davidoffa məxsus olan bir şirkətə Cənubi Georgiyada Leith limanında yerləşən və 1960-cı ildə tərk edilən balina ovu stansiyasının sökülməsi tapşırıldı. 1978-ci ildə Edinburqda Davidoffun şirkəti ilə Kristian Salvesen adlı Şotlandiya mənşəli şirkət arasında müqavilə imzalandı. Bu müqavilədə işçilərin vəzifələrini yerinə yetirmək üçün dörd il adada qalmaları müəyyən edilmişdir. Britaniyanın Argentinadakı səfirliyindən lazımi icazələr alınmışdır.Səfirlik tərəfindən bu tapşırığın Argentinalı bir şirkətə verilməsinin səbəbi bunun yalnız kommersiya fəaliyyəti kimi görülməsi idi.

Belə bir müqavilənin Argentinanın adada mövcudluğunu qanuniləşdirəcəyi fikri Folklend lobbisini çox narahat etdi. 1982-cü ilin martında Folklend qubernatoru Reks Hant Cənubi Georgiyadakı vəziyyətə nəzarət etmək və argentinalı işçiləri adalardan çıxarmaq istəyirdi. Folklend qubernatorluğu işçilərdən adalarda qalmaq istədikləri təqdirdə "ağ kart" tələb edirdi.Bu tələbin yerinə yetirilmədiyi təqdirdə adalardan zorla çıxarılacaqları bildirildi.

Folklend adaları və onların asılılıqları ilə bağlı suverenlik məsələsi hələ də müzakirə mövzusu olduğu üçün bu tələblər Argentina tərəfindən rədd edildi. İcazə almaq üçün müəyyən cəhdlər edilsə də, heç bir nəticə əldə olunmadı. Argentinaya

görə, bu tələbləri qəbul etmək Britaniyanın adalar üzərində hökmranlığını qəbul etməklə bərabər tutulurdu. Bu vəziyyət Argentinanın adadakı işçiləri dəstəkləmək və qorumaq qərarına da təsir etdi.

19 mart 1982-ci il, fəhlələrin müqaviləyə əsasən Cənubi Georgiyaa adasına enmə tarixi hərbi fəaliyyətin müjdəçisi idi. Davidoff və onunla birlikdə olan işçilər Argentina donanmasından adalara getmək üçün icazə aldılar və donanmaya aid bir nəqliyyat gəmisi olan ARA Bahia Buen Sucesco ilə adalara daşındılar. Argentina gəmilərinin Folklend adalarına səfərləri iki ölkə arasında 1971-ci ildə imzalanmış rabitə sazişi çərçivəsində təşkil edilmişdir. Bu müqaviləyə əsasən, ARA Bahia Buen Sucesco Britaniya hakimiyyəti tərəfindən tanınan nəqliyyat gəmisi idi və Antarktidaya turist səfərlərində də istifadə edilmişdir. Argentina rəsmilərinin sözlərinə görə, onun göyərtəsində heç bir əsgər təyin olunmayıb. Bununla belə, bəzi İngilis mənbələri işçilərin bir hissəsinin donanma əsgərləri olduğunu və onların məqsədinin bu adada baza qurmaq olduğunu bildirir.

İqlim baxımından Antarktidaya çox bənzəyən bu adada yalnız bir Britaniya tədqiqat qrupu vardı. Bu qrupun yeri Qrytviken yaxınlığındakı King Edward nöqtəsidir. Bu tədqiqat qrupu Argentina işçiləri ilə ilk vizual əlaqə qurdu.

İşçilərin gəmidə Argentina himnini oxuması, Argentina bayrağını daşıması və Reks Hantın tələb etdiyi sənədləri çatdırmaması kimi davranışlar işçilərin adaya getməsinin eyni zamanda bir işğal olaraq qəbul edilməsinə səbəb olur. Adaların qubernatoru Reks Hant Argentinanın bu addımına sərt reaksiya verilməsi lazım olduğunu düşünərkən, Argentinanın İngiltərə səfiri ehtiyatlı olması lazım olduğunu bildirib. Səfir və qubernatorun razılaşdıqları məqam HMS Dayanımın bölgəyə təyin edilməsi idi.

Martın 21-də yaşanan gərginlik və işğal düşüncəsi səbəbiylə Cənubi Atlantikadakı HMS Endurance patrul gəmisinə Folklenddəki qarnizondan əsgərləri gücləndirmək və ehtiyat tədbiri olaraq bölgəyə getmək əmri verildi. Bu əmrə uyğun olaraq, Cənubi Georgiyadakı elmi tədqiqat qrupu 23 Martda HMS Endurance tərəfindən evakuasiya edildi. Davidoff və işçilərin Argentina donanmasının

komandiri Xorxe Anayanın nəzarəti altında ola biləcəyi fikri bu tədbirin alınmasında təsirli oldu. Məlumdur ki, Anayanın Folklend adalarını zorla ələ keçirmək fikri var idi.

Bu hadisə ilə yanaşı, hökumətin müdafiə xərclərini azaltmaq üçün müzakirəyə çıxardığı HMS Endurance-ın Cənubi Atlantikadan geri çəkilməsi ideyasının dayandırıldığını söyləyə bilərik. İngilis hərbi varlığının Cənubi Atlantikadakı nümayəndəsi olan gəmi, böhran baş verməmişdən əvvəl 15 aprel 1982-ci ildə Londona qayıtmasını gözləyirdi.

HMS Endurance Cənubi Georgiyaya göndərildikdən sonra Argentina donanması adadakı işçilərin təhlükəsizliyini və evakuasiyasını təmin etmək üçün Alfredo Astizin komandanlığı altında ARA Bahia Paraiso təyin etdi.

Britaniya xarici işlər idarəsi bu problemi yaxşı idarə oluna biləcək böhran kimi görürdü, çünki argentinalı işçilər və ingilis tədqiqatçılar öz ölkələrindən zərər görmədən evakuasiya edilirdilər. Eyni zamanda, qərara gəldilər ki, bunu hökumətlər arasında böhran deyil, ticarət mübahisəsi kimi düşünmək daha məqsədəuyğundur. Buna səbəb iki ölkənin suverenlik danışıqlarını davam etdirməsidir.

Bu arada adaların paytaxtı Stenlidə isə bunun əksi bir hal müşahidə olunurdu. Adaların qubernatoru Reks Hant Britaniyanın xarici orqanlarına Davidoffun adi bir alverçisi olmadığı və bu hadisə ilə bağlı qəti qərar verilmədiyi təqdirdə argentinalıların adalara qeyri-qanuni enişlərini davam etdirəcəkləri ilə bağlı narahatlığını bildirdi.

Hunt'a görə, adi məqsəd üçün çox planlaşdırılmış görünən bu böhranın məqsədi Britaniyanın reaksiyasını ölçməyə çalışmaqdır.

Davidoffun işçilərinin yaratdığı bu böhran ictimaiyyətə müxtəlif təsirlər göstərdi. Londonda sərlövhələrində “Folklend adalarının işğalı” yazılan qəzetlər nəşr olundu. Fernandezin sözlərinə görə, bu vəziyyəti böhranın böyüməsini istəyən qrup təşkil edib. Davidoff və argentinalı işçilər İngiltərədə işğalçılar adlandırıldılar. Britaniyanın Georgiya böhranına ilk cavabı regiona sualtı qayıqlar göndərmək oldu.

Cənubi Atlantikaya HMS Spartan 29 martda, 1 apreldə HMS Splendid və 5 apreldə HMS Conqueror üzdü.

# II FƏSİL. BÖYÜK BRİTANİYA VƏ ARGENTİNA ARASINDA MÜHARİBƏ VƏ ONUN NƏTİCƏLƏRİ

## 2.1 Hərbi əməliyyatlar və onların xarakterik xüsusiyyətləri

Argentinanın cənubunda Pataqoniya sahillərindən 464 km kənarda Atlantik okeanının ən strateji əhəmiyyətli nöqtələrindən birində yerləşən Folklend adaları 2 aprel 1982-ci ildə yaxın tarixin ən mühim savaşına şahidlik etdi. O tarixədək adı çox səslənməyən bu ərazi uğrunda gedən savaş 72 gün davam etsə də, 2 əsrlik bir problem olaraq bu gün də tam həllini tapmamışdır. Argentinanın Malvin, İngiltərənin Folklend adlandırdığı adanın sahəsi 11400 km2-dir. Uzunluğu 260 km , eni 215 km-dir. 1502-ci ildə Ameriqo Vespuççi tərəfindən kəşf edildiyi də hesab olunan Folklend adaları Piri Rəisin də dünya xəritəsində görünməktədir.

Şübhəsiz ki, Folklend müharibəsinin ən gözəçarpan tərəfi III dünya ölkəsi olan Argentinanın imperyalizmin dominant ölkəsi olan İngiltərəyə müharibə elan etməsi idi. Bu hadisə XX əsrin ən əhəmiyyətli etirazlarından hesab oluna bilər. İki güc arasında siyasi, iqtisadi və hərbi sahədə böyük fərqlər var idi. Müharibə qısa müddətdə davam etsə də, hava və quruda ola biləcək ən geniş ərazidə reallaşmışdır.

Argentinanın haqq tələbinin tarixi arxa planı səbəbi ilə uzun diplomatik keçmişi vardır. Coğrafiya və beynəlxalq hüquq Argentinanın haqlı olduğunu dəstəkləyir. Həmçinin 1950-ci ildən sonra BMT-nin müstəmləkələrin tərk edilməsinə dair aldığı qərar Folklendə də təsir etdi. Bu zaman bir çox müstəmləkə ya əsl sahiblərinə verilmiş ya da “ortaq dövlət” anlayışı altına keçmişdir. 1979-cu ildə ABŞ Panama kanalını təhvil verməyi qəbul etmişdir. İngiltərənin də bunu etməməsi üçün bir səbəbi yox idi. Bu səbəblə İngiltərə adadan çəkilmək niyətini səsləndirməyə məcbur oldu. İngiltərə Folklenddən çəkilmə siyasətini Latın Amerikası ölkələri ilə münasibəti yaxşılaşdırmaq üçün bir vasaitə olaraq görürdü. İngiltərə Folklenddəki varlığını bir neçə yüz köçkün arasında keçirdiyi referendumla əsaslandırırdı. Folklendə “öz müqəddəratını təyinetmə haqqı” sadəcə İngiltərə tərəfindən verilmişdi.

Səhnə arxası reallığın Atlantik okeanının strateji nöqtəsində qurulan NATO bazaları olduğu hər kəsə məlum idi. Problemin qarışıqlığının səbəbi sadəcə imperyalist müdaxilələr deyildi. Heç kim Argentinanın haqlı olmasını müzakirə etmirdi. Latın Amerikasındaki xuntanın məsələni hərbi münaqişə halına gətirməsi problemi dərinləşdirmişdi. Argentinanın İngiltərə qarşısında uzun müddət tab gətirə bilməməsinin səbəbi də bu idi. Böyük güclərlə mübarizə aparan bir dövlət xalqı ilə sülh içində olmalı və güclü iqtisadiyyata sahib olmalıdır. Amma Argentina xuntası komunist təhdidlərdən xilas olmaq üçün bu xüsusiyyətlərə diqqət yetirmədi.

Folklend XIX əsrə qədər İspan hakimiyyətində qaldı. İngilislər arxipelaqın Cənubi Atlantikdə ticarət yollarını idarə etmək üçün əhəmiyyətini anladıqları vaxtdan-XVIII əsrin ortalarından ada ilə baölı iddialar etməyə başladılar. Hətta adada 1771-1774-cü illərdə ingilis qarnizonu da fəaliyyət göstərib. İngilislər ispan donanmasının təkidi ilə buranı tərk edərkən buraya bir nişan buraxdılar. Bu nişan ispan konsulluğunun yerləşdiyi Buenos Airesə, daha sonra 1806-cı ildə ingilis birlikləri tərəfindən Londona aparılmışdır.

1810-cu ildə Argentinada müstəqillik uğrunda mübarizə başladı. 1816-cı il iyulun 9-da Argentina müstəqilliyini elan etdi. 1823-cü ildən etibarən Argentina qubernatorluğu quruldu. Buna baxmayaraq ingilislər 1771-ci ildə qoyduqları nişana əsaslanaraq adanın özlərinə aid olduğunu iddia etdilər.

Argentina hakimiyyətinin gətirdiyi ticarət qanunları İngiltərə qədər ABŞ-ı da narahat etmişdir. Buna görə də adadaki hakimiyyəti tanımırdı. Amerikalı balıqçıların fəaliyyətinə mane olunması iki ölkə arasında diplomatik münaqişəyə yol açdı. ABŞ Argentina qubernatorunu piratlıq və oğurluqla günahlandıraraq bir müharibə gəmisi göndərdi. Ada amerikalı əsgərlər tərəfindən talan edildi. Məskunlaşanlar qaçmağa məcbur oldu. Qubernator adanı tərk etdi və iki ölkə arasında diplomatik əlaqələr 1832-ci ildən 1843-cü ilə qədər kəsildi.

ABŞ hücumlarını fürsət bilən ingilislər adaya geri qayıtdılar və artıq adada heç bir varlığı olmayan ispanlarla müqavilə imzalayıb, Folklenddə müstəmləkə sistemi qurdular. Kifayət qədər dəniz qüvvəsinə sahib olmayan argentinalıların adanı geri

qaytarma cəhdləri İngiltərə-ABŞ gücü qarşısında zəif qaldı. Əslində İngiltərə Argentinanı maliyyə baxımdan özündən asılı edib, bu ölkəni borclu hala salmaları ilə Folklend adaları problemi bir müddət unuduldu. O dövrdə Cənubi Amerikada sənayeləşmə və dəmir yol nəqliyyatı tamamilə ingilis kapitalının nəzarətində idi. Bu hal İkinci dünya müharibəsindən sonrakı milliləşdirməyədək davam etdi. Ondan sonra Folklend adaları problemi yenidən Argentinada müzakirə mövzusu oldu.

Argentina xuntası 1950-ci ildən bəri ABŞ ilə yaxın münasibət qurmuşdu. Həm ölkə içində ittifaqlarda, həm də Latın Amerikasındakı bütün proseslərdə Argentina ABŞ-ın ən mühim müttəfiqi idi. Nikaraquada ABŞ-ın əks-hücum qoşunlarına Argentina rəhbərlik edirdi. Həm də ABŞ ikiqütblü dünyada Argentina kimi bir dövləti digər qütbə buraxmazdı. Xunta öz mövqeyini, varlığını həddən artıq qiymətləndirirdi, lakin, gözlədikləri kimi olmadı. ABŞ tərəfsiz qalmayaraq NATO-daki müttəfiqi olan İngiltərəni dəstəklədiyini açıqladı.

Folklend adaları bu gün də Argentinanın əhəmiyyətli bir hissəsini təşkil edir.

Argentina Baş Qərargahının Folklenddə başladılan əməliyyatı davam etdirmək üçün adekvat plan və strategiyasının olmaması aşkar idi. Silahlı Qüvvələrin döyüşlər zamanı sınaqlardan yaxşı keçdiyini də demək mümkün deyildi.

Əvvəla General Leopoldo Galtierinin adaya böyük miqdarda hərbi qüvvə yığıb müdafiə etmək planı müasir tipli hərbi əməliyyatlara zidd idi. Həmçinin bunu reallaşdırmaq üçün Argentinanın kifayət qədər təyyarəsi və hətta adada eniş zolağı belə yox idi. Kifayət qədər ərzaq və sığınacaqdan məhrum və çoxu profesional olmayan gənc əsgərləri Folklend kimi Antraktika soyuğu və küləyi olan bir yerə aparmaq olduqca məntiqsiz idi.

İqlim şərtləri düşmənin gücü və texnoloji üstünlüyü nəzərə alındıqda ərazi müdafiəsinə əsaslanan müharibə Argentinanın əleyhinə idi. İngilis donanması və hava gücünün Argentinanın adalara olan dəstəyinin qarşısını asanlıqla alacağı məlum idi. Regionda 3 nüvə sualtı qayığı ilə mövcud olan Britaniya donanmasının blokadasından yan keçmək, adada olan silahların bombardmanı altında müqavimət göstərmək qeyri-mümkün idi.

Argentina ordusunun ali komandanı xalqa deyil, üst təbəqəyə mənsub idi. Bu səbələ milli orduda lazım olan ruh yüksəkliyi yox idi. Komandirlər aclıq və soyuq qarşısına savaşan təcrübəsiz birliklərin dağılmaması üçün şiddət tətbiq edirdilər. Uzun müddətdir ki, çevrilişlə iqtidarda qalan Argentina ordusu xaricdən bir düşmənlə savaşmağa deyil, daxildə müxalifləri əzməyə hazır idi. Komandirlərin bir çoxu xalqına qarşı cinayət törətmiş şəxslər idi. Tək bir güllə atmadan San Pedro adasında birliyi ilə təslim olan baş leytenant Alfredo Astiz bunlardan biri idi (66, s 40) .

Folklenddəki quru birliklərinə başçılıq edən General Menendes iradəsiz şəkildə məğlubiyyəti gözlədi. Kifayət qədər silah-sursatı olmayan birliklərini əraziyə bölüşdürdü. Döyüş təcrübəsinin olmamasına baxmayaraq, argentinalılar əlbəyaxa döyüşdə böyük qəhrəmanlıq göstərdilər, lakin adaya dəstək göndərilə bilmədiyi üçün daha çox müqavimət göstərmələri mümkün olmadı. Komandanlığın ən mühüm səhvlərindən biri Argentina kreyseri General Belqranonu sualtı qayıqlara qarşı adekvat müdafiəsi olmadan adaya göndərmələri idi.

Baş Qərargahın müharibə planını düzgün təşkil etsəydi Argentina ordusu daha uzun müddət müqavimət göstərə bilərdi. Bunun qarşılığında isə zaman artdıqca müharibə xərcləri İngiltərə üçün daha çox olacaqdı. Sadəcə geostrateji əhəmiyyəti olan bu ərazini əlində tutmaq üçün Britaniya bütün donanmasını və hava gücünü göndərmək məcburiyyətində idi. Argentinanın isə sadəcə qarşı sahildə möhkəm mövqe tutması kifayət idi. Bu mühüm üstünlük xunta tərəfindən istifadə edilmədi. Argentinanın uzunmüddətli müqavimətinin Latın Amerikasının digər ölkələrində də çaxnaşmaya yol açması qaçılmaz idi. Bunun ilk əlamətləri 1978-ci ildə Çilidə “Beagle Channel Conflict”-də ortaya çıxdı. Halbuki Pinoçetin faşist xuntası Argentina xuntası ilə ittifaq halında idi. Hər ikisi də ABŞ-ın Kondor planının əsas hissələri idi (66, s 40).

Buna baxmayaraq qeyri-müəyyən sərhəd problemləri və milli maraqlar səbəbindən iki ölkə müharibə vəziyyətində idi. Çili müharibə zamanı hava bazalarını İngiltərəyə kəşfiyyat dəstəyi verdi. O dövrdə qitədəki tək anti-imperialist və demokratik ölkə hesab olunan Peru Argentinanı dəstəkləmək qərarına gəldi. Əlavə

olaraq, Perunun Çili ilə keçmiş sərhəd problemləri var idi. Müharibənin başlanğıcında Peru Argentinaya 10 qırıcı təyyarə bağışladı. Həmçinin müharibə boyu Argentinaya pilotlar, hərbi məsləhətçilər, raketlər və tibbi dəstək verdi. BMT Təhlükəsizlik Şurasında Sovet və Çin düşərgələri də Argentina ilə bağlı qərara bitərəf qalarkən, Panama tək başına bu qərarın əleyhinə səs verdi. Bir ay sonra Venesuela Baş Qərargahı adada qalan argentinalı əsgərlərə dəstək olmaq üçün hava-desant qövvələrini göndərməyi təklif etdi. Savaşın davam etməsi vəziyyətində anti-imperialist cəbhə yarana bilərdi, lakin Argentina xuntası uzun müddət davam edən tərəfdaşlığa görə ABŞ-a qarşı əks mövqe nümayiş etdirməkdən çəkinirdi.

Əslində Argentina xuntası Folklend müharibəsinə gedərkən 1976-cı ildən bəri ittifaq qurduğu neoliberallarla da əlaqəni kəsmişdi, çünki neoliberal layihə ölkəni borc və iflasa sürükləmişdi. Onlar artıq kapitalist xəyalının sonuna gəlmişdilər. Eyni zamanda xalqa qarşə törətdikləri böyük cinayətlər onların milli cəbhə yaratmasına da mane olurdu.

Argentina dəniz qüvvələri Folklend adalarının geri alınması üçün birbaşa işğal əməliyyatından başqa bir variant da seçmişdi. Plan birbaşa hərbi yolla deyil, adaların bir hissəsində aparılan iqtisadi fəaliyyətdən irəli gələn hüquqların müdafiəsi formasında həyata keçirilməli idi. Bu məqsədlə, 1979-cu ilin sentyabrında Konstantino Davidoff adlı argentinalı tacir San Pedro adasında tərk edilmiş balıqçılıq obyektlərinin sökülməsi üçün Britaniya şirkəti ilə müqavilə bağladı. Tacir bu iş sənədi ilə ilk növbədə İngiltərə səfirliyinə müraciət edərək, İngiltərənin nəqliyyat gəmisindən bölgədə istifadə etmək istəyib, lakin bu istək rədd edilib. Bu halda tək seçim Argentina donanmasına məxsus bir gəminin istifadəsi idi. Davidoff həqiqətən də 1981-ci ilin dekabrında Argentina donanmasına məxsus bir buz qıran gəmi ilə regiona səfər etdi. Eyni zamanda, bu reaksiya ölçmək üçün atılan bir addım idi. İngilislər hələ ki məsələyə fikir vermirdilər. 1982-ci il martın 19-da Davidoff bu dəfə yük gəmisi ilə gəldi və limanda Argentina bayrağı qaldırıldı. Bu hadisə mediada yer aldıqda İngiltərə Xarici İşlər Nazirliyi etiraz olaraq, əraziyə kiçik bir hərbi birlik göndərdi. Buna qarşılıq olaraq, Argentina dəniz qüvvələri buradaki mövcudluğunu

daha da gücləndirdi. Əvvəlcə Argentina qrupu, dörd gün sonra isə general-mayor komandanlığı altında 40-cı Folklend işçi qrupu adaya yerləşdirildi. Artıq aprelin 1-də Argentina Cənubi Georgia adasında hərbi mövcudluğunu tam möhkəmləndirmişdi.
M. Tetçer höküməti Argentinanın bu qədər irəli gedəcəyini gözləmirdi. Eyni gündə Marqaret Tetçer ABŞ naziri Ronald Reyqandan vasitəçi olmasını istədi. Reyqanın General Galiteri ilə apardığı danışıq uğursuz oldu (38, s 78) .

İngilislərin baş verənlərdən gec xəbərdar olmasının səbəbi əməliyyatların Folklend adalarının əsas quru parçasından 1390 km şərqdə - San Pedro adasında başlaması idi. Bu adalar Argentinanın ən uzaqdaki yeri idi. Məntiqi olaraq gözlənən isə, Argentinanın özünə ən yaxın nöqtəni - özünü daha rahat şəkildə müdafiə edəcəyi bir yeri işğal etməsi idi.

1982-ci il aprelin 2-də Argentina Hərbi Dəniz Qüvvələrinin sualtı və amfibiya qrupları İngilislərin Moody Broook adı verdiyi yerə, daha sonra da Argentina limanına yaxınlaşdı. Gecə saat 01:30 iradələrində başlanan əməliyyat səhər saat 8:30-da başa çatdı. İngilis qubernator və komandiri təslim oldu.

1 gün sonra İngiltərə BMT-dən Argentinanın hərbi birliklərini çəkməsini tələb edən qərar çıxarmasını istədi. Aprelin 7-də xunta Folklendə Benjamin Mendesi qubernator olaraq təyin etdi.

Aprelin 9-da xuntanın rəhbəri general Qaltieri qərargah rəisi ilə məsləhətləşmədən zirehli briqadanın Folklendə göndərilməsi əmrini verdi. Aprelin 22-də adaya quru qoşunlarının gəlməsi ilə Argentina ordusunun sayı 10 minə çatdı (40, s 55).

Hücuma hazırlaşan İngiltərə aprelin 12-də adanın 370 km uzaqlığındaki ərazini "qadağan olunmuş ərazi" elan etdi. İngilis donanması ilk hücumunu aprelin 25-də San Pedro adasında reallaşdırdı. Oradaki kiçik hərbi birliyi əsir aldı və Argentinanın bir sualtı qayığını batırdı. Mayın 1-də İngilis hava qüvvələrinin dəniz və quru hədəflərinə yönələn əməliyyatı başladı. Mayın 2-də müharibə ərazisindən uzaqda və İngiltərənin "qadağan olunmuş" elan etdiyi ərazinin xaricində olan Argentina gəmisi "ARA General Belgrano" ingilis nüvə sualtısı "HMS Conqueror" tərəfindən batırıldı.

323 nəfərədən ibarət heyət həyatını itirdi. 3 mayda Argentinanın digər gəmisi "ARA Sobral" hava hücumu ilə batırıldı. Mayın 4-də Argentina Hava Qüvvələri ingilis müharibə gəmisi "HMS Sheffield"-ı batırdı. Bu II dünya müharibəsindən sonra məhv edilən ilk ingilis gəmi idi. Mayın 15-də ingilislər dənizdən vurduqları Borbon adalarındaki Argentina hava qüvvələrinin 10 təyyarəsini istifadəsiz hala saldı. Mayın 21-də ingilislər adaya şimaldan ilk enişi reallaşdırdılar. Burada Argentinanın 12 təyyarə və 3 vertalyotu məhv edildi. Mayın 24-də Argentina hava gəmiləri ingilislərin "HMS" freqatını batırdı. Sonra 2 ingilis gəmisi Argentinanın hava hücumu zamanı batırıldı. Mayın 27-də ingilislərin irəliləməsi ilə müharibə quruda davam etdi. Mayın 30-da Argentina hava qüvvələri ingilis gəmisi HMS "İnvicible" üzərinə 6 təyyarə ilə hücum edərək onu yararsız hala saldı. Argentina əldə etdiyi uğurlardan cəsarətlənərək hücuma davam etdi. Argentina iyunun 8-də ingilislərin 3 freqatını ( "Sir Tristan", "Sir Galahat", "Plymount") vuraraq adaya enmə cəhdlərinə mane oldu. İngilislər itirdikləri əsas qərargahlarını geri almaq üçün 11-13 iyunda böyük miqyaslı bir əməliyyata başladılar, lakin Argentina əsgərlərinin müqavimətini qıra bilmədilər. İyunun 12-də Argentinalılar ingilisləri təəccübləndirən bir addım atdılar. Dənizdən quruya istifadə üçün olan fransız raketi MM38 EXOCET-i qurudan dənizə istifadə edərək ingilis qırıcısı HMS Qlamorganı vurdular. İngilis qərargahını əlində tutan Argentina qarnizonu 14 iyunda atəşkəs şərtlərini görüşməyə başladı.

Argentina hərbi rəsmiləri iyunun 15-də keçirdikləri görüşdə İngiltərə ilə əlaqələrin gələcəyini müzakirə ediblər, əsir əsgərlərin ölkəyə qaytarılması, atəşkəs və komandir Leopoldo Qaltyerinin vəziyyəti ilə bağlı görüşlər keçiriblər. Bu görüşlər nəticəsində komandir Qaltyeri istefa verib. Komandir Nikolaides 1983-cü ildə keçiriləcək seçkilərə qədər ordunun başçısı təyin edildi.Müharibədən sonra itkilərlə bağlı müxtəlif məlumatlar ortaya çıxdı. Britaniya mənbələrinin məlumatına görə, "HMS Sheffield", "HMS Ardent", "HMS Antelope", "HMS Coventry", "Atlantic Conveyor" və "Sir Galahad" gəmilərinin batdığı, daha 3 gəminin zədələndiyi bildirilib. Lakin Argentina mənbələri bu rəqəmin daha çox olduğunu bildirir. O, 9 gəminin tamamilə batdığını və ya döyüşdən kənarda qaldığını, 12 gəminin ciddi, 11

gəminin isə yüngül zədələndiyini bildirib. Argentinanın itkiləri 1 kreyser, 1 nəqliyyat gəmisi, 1 sualtı qayıq və 5 digər gəminin batdığı və ya döyüşdən çıxdığı bildirilir. Ola sayında müəyyən fərqlər olsa da, Folklend müharibəsi zamanı 255 İngilis əsgəri öldürüldü, 777 İngilis əsgəri yaralandı. 635 Argentina əsgəri həlak olub, 1068 Argentina əsgəri yaralanıb. 3 mülki vətəndaş həyatını itirib. İngiltərə hökuməti Folklend əməliyyatına 700 milyon funt-sterlinq, müharibədə itirilən təyyarə və gəmilərə isə 900 milyon funt-sterlinq xərcləyib. Qeyri-rəsmi mənbələrə görə, adanın 4 illik dəyəri 2 milyard funt-sterlinqdən artıqdır.

## 2.2 Folklend müharibəsinə beynəlxalq reaksiyalar

İki ölkə arasındaki mübahisə 1965-ci ildə BMT-də ilk dəfə müstəmləkəçilik məsələsi kimi müzakirə edildi, bundan sonra bu məsələ beynəlxalq təhlükəsizlik problemi olaraq müzakirə olunmuşdur.

Adanın Argentina tərəfindən işğalına qədər problemə müstəmləkə məsələsi kimi yanaşıldığından Argentinaya daha çox dəstək olunurdu. Buna görə də, Argentinanın güc tətbiq etməsi Təhlükəsizlik Şurasında təəccüblə qarşılanmışdır. Folklend adası problemi 1965-ci ildən etibarən hər il BMT konfranslarına daxil edilsə də, çox az nümayəndə bu məsələ ilə kifayət qədər məşğul ola bilmişdir. Bu Təhlükəsizlik Şurasının Yaxın Şərq məsələləri ilə daha çox məşğul olması ilə bağlıdır.

BMT Təhlükəsizlik Şurasının konfransında qəbul edilən 502 saylı qətnamə hərbi əməliyyatların dərhal dayandırılması, Argentina qüvvələrinin dərhal geri çəkilməsi, Argentina ilə Böyük Britaniya, Şimali İrlandiya ilə Birləşmiş Krallıq arasındaki fikir ayrılıqlarının diplomatik yolla həlli və BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə tam hörmət edilməsi tələb edilirdi.

BMT Təhlükəsizlik Şurasının 5-i daimi olmaqla, 15 üzvü vardır. Daimi üzvlər İngiltərə, ABŞ, Fransa, Rusiya və Çindir. Daimi olmayan üzvlər iki ildən bir seçilir. 1982-ci ildə seçilən üzvlər Qayana, İrlandiya, İordaniya, Yaponiya, Panama, Polşa,

İspaniyadır. Şurada təqdim olunan qətnamələrin qəbul edilməsi üçün 9 səs lazımdır. Daimi üzvlərdən hər hansı birinin veto qoyduğu təqdirdə qətnamə qəbul edilmir.

Təhlükəsizlik Şurasının 15 üzvündən sadəcə Panama 502 saylı qətnaməyə veto qoymuşdur. Rusiya, Çin, Polşa və İspaniya isə birtərəf qaldı. Argentina Rusiyadan veto qərarı gözləsə də, bu reallaşmadı. Beləliklə, qərar şurada təsdiq olundu. Qərarın qəbul olunmasında İngiltərə səfiri Parsonsun cəhdləri danılmazdır. Parsons Fransa, ABŞ, İrlandiya və Yaponiyanın qərarın lehinə səs verəcəklərindən əmin olduqdan sonra səylərini başqa ölkələrə yönləndirdi. Marqaret Tetçer şəxsən Kral Hüseynə zəng edərək, İordaniyadan dəstək istədi. Toqonun səs verməsi Fransanın səyləri nəticəsində alındı. Uqandanın İngiltərəni dəstəkləmə səbəbi isə Argentinanın nümayiş etdirdiyi aqresiv mövqeyi idi. Parsons iki gün içərisində bu ölkələrin dəstəyini alaraq qərarın qəbul edilməsinə nail oldu. Argentinanın BMT-dəki nümayəndəsi Eduardo Roka isə işğaldan bir həftə əvvəl vəzifəyə gəlmiş, həm Şuranın fəaliyyəti ilə tanış olmaması, həm də sağlamlıq problemləri ilə bağlı Şurada lazımi səyləri göstərə bilməmişdir (26, s 50). Bu hal Argentina xuntasının diplomatik uğura layiq və hazır olmadığını da göstərirdi.

İngiltərə höküməti bu qərarın alınmasından sonra Argentina əsgərlərinin geri çəkilməməsi ehtimalına qarşı BMT Nizamnaməsinin 51-ci maddəsində qeyd olunan “silahlı hücumlara qarşı özünümüdafiə haqqını” istifadə etməyə qərar vermiş və hərbi hazırlıqlara başlayacağını bildirmişdir. İngiltərənin BMT-dəki nümayəndəsi Parsons İngiltərənin mümkün hərbi müdaxiləsini qanuniləşdirməyi qarşısına məqsəd qoymuşdur. Şurada qəbul edilən qərarların İngiltərə lehinə olması ingilis diplomatiyasının uğuru kimi qiymətləndirilirdi.

İngiltərənin başlatdığı hərbi hazırlıqlara ABŞ tərəfindən bəzi reaksiyalar oldu. Amerikanın Latın Amerikası Məsələləri üzrə müavini Tomas Enders Amerikanın Latın Amerikası ilə olan yaxın münasibətlərini və Mərkəzi Amerikadakı vəziyyəti nəzərə alaraq, Folklend savaşı üçün riskə getməməsini istədi. Yenə ABŞ-ın BMT-dəki nümayəndəsi Jeyn Kirkpatrik tarixi əsaslara dayanaraq, haqq tələb edilən bir

bölgə üçün güc istifadəsinin təcavüz kimi qiymətləndirilə bilməyəcəyini ifadə edərək, qərəzsiz və birtərəf mövqe tutmağa çalışdı.

3 apreldə vasitəçilik fəaliyyətləri başlamış və müharibə ərzində də davam etmişdir. ABŞ arxipelağın işğalını öyrəndikdən sonra özünü həm İngiltərənin, həm də Argentinanın yaxın dostu olaraq göstərməyə çalışırdı. Aprelin 30-na qədər ABŞ prezidenti Ronald Reyqan və ABŞ dövlət katibi Aleksandr Heyq İngiltərə və Argentina arasındaki problemin sülh yolu ilə həll olunması üçün ən çox səy göstərən şəxslər olublar.

Peru prezidenti Fernando Belaunde Terridən də vasitəçilik təklifi gəlmişdi. Terri qarşılıqlı atəşkəs və əsgərlərin geri çəkilməsini özündə ehtiva edən sülh planı hazırlamışdı, lakin mayın 2-də İngiltərə sualtı gəmisi “HMS Conqueror”-un “General Belqrano” kreyserini batırması bu təklifin həyata keçirilməsinə mane oldu.

BMT-nin baş katibi Xavyer Perez de Kuellar da iki tərəfin ortaq bir nöqtədə razılığa gəlməsi üçün vasitəçi rolunu oynadı. Adada regional bir şuranın yaradılması və qoşunların çıxarılmasını təklif edib, lakin adanın suverenlik məsələsi bu danışıqlara daxil edilməyib. Argentina ada sakinlərinin tərəfsiz qalmasını, danışıqların yalnız İngiltərə və Argentina arasında aparılmasını tələb edib. Argentinanın bu tələbinin səbəbi ada sakinlərinin İngiltərə hakimiyyəti altında qalmaq istəmələri idi. Argentinanın bu tələbinin İngiltərə tərəfindən rədd edilməsi bu vasitəçiliyin də nəticəsiz qalmasına səbəb oldu.

İngiltərə BMT-də qəbul edilən 502 saylı qətnamədən sonra Argentinadaki aktivlərini dondurmaq qərarına gəldi. Argentinalı şəxslərə və qurumlara kredit verməyi qadağan etdi. İki ölkə arasında idxal və ixrac dayandırıldı. Argentina da buna qarşılıq olaraq, Britaniyanın iqtisadi fəaliyyətini ölkəsində dayandırdı. İki ölkə arasında həyata keçirilən qarşılıqlı iqtisadi tədbirlər 1982-ci il sentyabrın 18-nə qədər qüvvədə qaldı.

İngiltərə Avropa İqtisadi Birliyindən dəstək istədi. Bu dəstəkdə Argentina mallarına embarqo qoyulması demək idi. İngiltərənin bu istəyi Avropa İqtisadi Birliyi tərəfindən aprelin 14-də qəbul edildi və bu qərar təxmini bir ay qüvvədə qaldı.

Belçika, Avstriya, Qərbi Almaniya, İsveçrə, Hollandiya, İtaliya, İrlandiya da bu embarqoya qoşuldu. Əlavə olaraq, Yeni Zellandiya və Kanada Buenos Ayresdəki səfirlərini də geri çağırdılar. İngiltərə xüsusilə Qərbi Almaniyanın embaqroya qoşulması üçün cəhdlər etdi, çünki Qərbi Almaniya Argentinanın Avropadaki ən böyük tərəfdaşı idi.

Daha sonra embarqo müddətinin daha bir həftə uzadılmasını istəmiş, lakin İtaliya və İrlandiya bundan imtina etmişdi. Avropa İqtisadi Birliyinin tətbiq etdiyi bu embarqonun xuntanın geri addım atmasına səbəb olacağı düşünülürdü, lakin gözlənildiyi kimi olmadı. Avropa dövlətlərinin daxil olduğu bu embarqo qərarı İngiltərəyə mənəvi güc də vermişdir.

Argentinaya qarşı hazırlanan bu embarqo qərarı tez bir zamanda həyata keçirildi. Bu halda İngiltərənin diplomatik səyləri böyük əhəmiyyət kəsb edirdi. Avropa İqtisadi Birliyinin embarqo qərarının icrasına bir dövr Argentinada insan hüquqlarının pozulmasının da müəyyən qədər təsiri var idi.

Mayın 2-də "General Belqrano" kreyserinin batırılmasından sonra mövcud vəziyyət dəyişdi. Can itkisinin ani artımı ilə BMT-nin İngiltərəyə olan dəstəyi azaldı. BMT-də Nikaraqua və Honduras nümayəndələri İngiltərənin güc tətbiq etməsini tənqid etdilər. Avropa İqtisadi Birliyi də tutduğu mövqeni dəyişdirdi. Daha sonra İtaliya və İrlandiya embarqo tətbiqindən çəkildi, bunun səbəbi isə, İngiltərəni müharibə tərəfdarı olaraq görmələri idi.

İtaliya Argentinaya qarşı tətbiq edilən sanksiyaların Argentinada SSRİ-nin Sovet təsirini artıracağını bildirmişdi, lakin İtaliyanın embarqonun uzadılmasına qarşı çıxmasının əsas səbəbi Argentinadaki italyan əsilli vətəndaşların çoxluğu idi. İtaliyada keçirilən milli seçkilərdə səs vermək haqqı olan bir milyondan çox İtalya pasportuna sahib argentinalı mövcud idi (16, s 98). Bu da Argentinada güclü bir lobbinin varlığı deməkdir. Eyni zamanda italyan diplomatların fikrincə, 2 ölkə arasında diplomatik danışıqlar yolu ilə həll olunmayacaq bir problem yoxdur.

Heyqin tətbiq etdiyi vasitəçilik cəhdlərinin 30 apreldə rəsmən uğursuz olması nəticəsində ABŞ İngiltərəyə dəstək olacağını bildirmişdir. Bundan sonra Amerika

Argentinaya qarşı bəzi sanksiyalar tətbiq etdi. Bu sanksiyalar bank kreditlərinin qadağan edilməsi və hərbi malların ixracının dayandırılmasından ibarət idi.

Fransa həm 502 saylı qətnamənin qəbul edilməsində, həm də Avropa İqtisadi Birliyi tərəfindən qəbul edilən embarqo qərarının tətbiq edilməsində İngiltərənin ən böyük dəstəkçilərindən olmuşdur. Müharibənin gedişinə təsir edən ən mühüm hadisə Argentinanın Fransaya sifariş etdiyi silahların daşınmasının dayandırılması, mövcud raket və təyyarələrə Fransadan ehtiyat hissələri, texniki xidmət və təlim dəstəyi ala bilməməsi idi. Marqaret Tetçer və Fransanın baş naziri Mitteran arasında şəxsi yazışmalarında Tetçer Mitterandan Argentinaya sifarişləri təxirə salmağı və Peruya silah göndərilməsini dayandırmağı xahiş etdi. Tetçer Mitteranda Perunun alacağı silahları Argentinaya çatdırmayacağına şübhə etdiyini bildirdi (24, s 76).

ABŞ-ın Argentinada insan hüquqlarının pozulması səbəbindən silah satışının qadağan etməsi Argentinanı Fransa ilə ticarətə sövq edən səbəblərdən biri idi. İşğaldan əvvəl Argentina donanmasına təhvil verilməsi üçün 12 ədəd “Super Etendard” müharibə təyyarəsi sifarişi mövcud idi. Ancaq Fransa bu sifarişlərin sadəcə 5-ni təhvil vermişdi. Fransanın sifarişləri yubatma səbəbi bir tərəfdən Tetçerin təzyiqi, digər tərəfdən İraqın İrana qarşı istifadə üçün Fransaya verdiyi sifarişlərin çoxluğu idi.

Latın Amerikası ölkələri Argentinanın Folklend adası üzərindəki hakimiyyət tələbini dəstəkləmiş, İngiltərənin suverenlik tələbini isə müstəmləkəçiliyin davamı olaraq görürdülər. Çili istisna olmaqla, bütün Latın Amerikası ölkələrinin Argentina ətrafında toplanmasının səbəbi İngiltərənin müstəmləkəçi mövqeyi idi. Venesuela, Peru və Panama Argentinaya olan dəstəklərini açıq şəkildə göstərdilər. Peru və Venesuela embarqo səbəbilə Argentinaya çatmayan hərbi təchizatlar üçün vasitəçilik edərək, Argentinanın müharibəyə davam etməsinə köməklik göstərmişlər.

Latın Amerikası ölkələri Folklend adasının Argentina tərəfindən işğal edilməsinə bir qədər fərqli reaksiya verdilər. Brazilya və Kolumbiya adalarının işğalı ilə başlayan bu böhranın BMT vasitəçiliyi ilə həllini istəyirdilər. Böhran nəticəsində Argentinada xuntanın devrilməsi də arzu edilən idi. Çili isə özü ilə Argentina

arasında yaşanan Beagle problemi səbəbilə sərhəd mübahisələrinin hərbi güclə həll olunmasına qarşı çıxaraq məsələnin diplomatik yolla həlli tərəfdarı idi.

Meksikalı diplomat Rafael de Le Kolina isə Cənubi Amerikadaki sərhəd mübahisələrinin çoxunun ən az Folklend mübahisəsi qədər qədim olduğunu və bu baxımdan, Argentinaya olan hər hansı hərbi dəstəyin qitədəki münaqişələri daha da şiddətləndirəcəyini bildirdi. Deyə bilərik ki, Britaniya hakimiyyəti altında olan bir bölgədə güc tətbiq olunması ümumiyyətlə Latın Amerikası ölkələrindən kifayət qədər dəstəyin alınmasına mane olur.

Müharibənin davam etdiyi günlərdə, aprelin 18-də Amerika Dövlətləri Təşkilatı ölkələrinin iştirakı ilə bir konfrans keçirildi. Konfransda İngiltərənin güc tətbiqinə son verməsi hər iki tərəfin geri çəkilərək, razılığa gəlməsi və münaqişənin sülh yolu ilə həll olması, adanın hakimiyyətinin Argentinaya verilməsi qərarı müzakirə olundu. Bu Argentina üçün diplomatik bir uğur olsa da, kifayət qədər təsir göstərmədi.

Argentina Latın Amerikası ölkələrinin tam dəstəyini almış olsa da, Amerika Dövlətləri Təşkilatı ölkələrinin xarici işlər nazirləri Argentinanın tələb etdiyi kimi, İngiltərə donanmasının Cənubi Atlantikadan çıxarılmasını tələb etmədilər. Bundan sonra aprelin 20-28-də Amerika Dövlətləri Təşkilatının keçirdiyi konfransda Argentina xarici işlər naziri Argentinanın Amerika Dövlətləri Təşkilatından İngiltərəyə qarşı hər hansı bir sanksiya tətbiq etməsini rəsmi olaraq tələb etməyəcəyini bildirdi (33, s 45).

Rio razılaşması çərçivəsində may ayının sonunda isə Amerikanın İngiltərəyə kömək etməsini dayandırmaq və Argentinaya kollektiv və ya fərdi şəkildə kömək göstərmək üçün konfrans keçirildi. Dörd ölkə bu qərarın əleyhinə səs verdi. Bu ölkələr Amerika, Çili, Kolumbiya və Trinidad idi. Aleksandr Heyq Argentinanın Folklend adası üzərində güc tətbiq etməsi səbəbilə Rio razılaşması çərçivəsində İngiltərəyə qarşı ortaq bir münasibət göstərilə bilməyəcəyini vurğuladı (46, s 20).

Mayın 24-də Nikaraqua, Venesuela və Panamanın xarici işlər nazirləri İngiltərənin Latın Amerikasına qarşı aqresiv mövqeyini tənqid edən bir bəyanat

yayaraq, Argentinaya qarşı tətbiq olunan iqtisadi sanksiyaları müzakirə etdilər. 28-29 mayda müharibənin şiddətlənməsindən sonra Latın Amerikası ölkələrinin Argentinaya olan dəstəyi artdı. Qustafsona görə, Latın Amerikası ölkələri Folklend adaları üçün İngiltərə, ABŞ və ya NATO ilə müharibəyə hazır olmadığı üçün kifayət qədər dəstək verməmişdir. Argentinanın ada üzərində güc tətbiq etməsi həm Amerika Dövlətləri Təşkilatı, həm Rio razılaşması çərçivəsində lazım olan dəstəyi ala bilməməsinə səbəb olmuşdur.

Argentina ilə SSRİ arasında ilk ticarət müqaviləsi 1946-1953-cü illər arasında imzalanıb. 1970-ci illərdə iqtisadi əlaqələr Argentinanın hərbi xuntasının anti-komunist münasibətinə baxmayaraq inkişaf etdi. 1970-ci illərdən sonra Argentinanın SSRİ ilə əlaqələrinin iqtisadi baxımdan yaxşılaşması Folklend adasının işğalından sonra Argentinanın sosialist ölkələrinin dəstəyinin alınmasında mühüm rol oynadı.

1979-cu ildə SSRİ-nin Əfqanıstanı işğal etməsindən sonra ABŞ tərəfindən qəbul edilən qərarla, 1980-ci il yanvarın 5-dən etibarən SSRİ-yə taxıl ixracı dayandırılmışdır. Bu tarixlərdə embarqoya əməl etməyən Argentina SSRİ-yə taxıl satmağa davam etmişdir. Sonraki müddətdə iki ölkə arasındaki əlaqələr iqtisadi sahədə davam etdirilmişdir.

İqtisadi sahədə inkişaf edən bu əlaqələr BMT Təhlükəsizlik şurasında təqdim edilən 502 saylı qətnamədə SSRİ-nin Argentina lehinə səs verməsinə kifayət etmədi. Kosta Mendesin səylərinə baxmayaraq, SSRİ birbaşa öz maraqları ilə bağlı görmədiyi bu qərarda birtərəf qalmağı seçdi. SSRİ-nin birtərəf qalmasında Argentinanın Latın Amerikasındaki anti-komunist mübarizədə Amerika ilə əmədaşlıq etməsinin də təsiri var idi. Buna görə də, Argentina SSRİ-dən hərbi yardım istəyə bilmədi.

Heyqin vasitəçilik etdiyi zaman komandir Qaltieri "Əgər İngiltərə bizi kömək istəməyə məcbur edəcək hala salarsa, Kuba və SSRİ daxil olmaqla kimdən olursa olsun köməyi qəbul edərik" kimi bir fikir bəyan etdi. Buna baxmayaraq, orduda olan səlahiyyətli şəxslərin heç biri SSRİ köməyini qəbul etmək istəmirdi. Argentina xarici işlər naziri də komunist ölkələrin köməyini almaq tərəfdarı deyildi.

İngiltərənin SSRİ-nin Argentinaya kəşfiyyat dəstəyi verməsi ilə bağlı şübhələri olsa da, SSRİ-ni bu münaqişəyə daxil olmasını istəmirdi. Bunun səbəblərindən biri SSRİ-nin Argentinaya nüvə silahı yaratmaqda kömək etdiyi düşüncəsi idi. Jurnalist Cek Andersonun xəbərinə görə, 1982-ci ildə 20 kq zənginləşdirilmiş uranın SSRİ-dən Argentinaya göndərilməsi üçün razılıq əldə olunub.

Müharibədən sonra SSRİ-nin Argentinaya verdiyi dəstək kəşfiyyat xarakterli olması ilə məhdudlaşmışdır. Bəzi dövlət rəsmiləri Argentinaya silah dəstəyi verdiklərini qəbul etmədilər. SSRİ tarixçilərinə görə, İngiltərənin böhranı gücləndirməsinin səbəbi imperialist maraqlarını qorumaq üçün müharibə istəməsi idi. Bu düşüncəyə görə, adanın ətrafında olan neft yataqlarına sahib olmaq İngiltərənin ən mühüm məqsədlərindən olmuşdur. 15 apreldə Latın Amerikasında yayımlanan b ir radyo verlişində neft yataqlarının əhəmiyyətindən bəhs edilmiş və təxminin 200 milyard barel neftin mövcud olduğu bildirilmişdir (17, s 109).

1980-ci il aprelin 30-da Amerikanın İngiltərəyə verdiyi dəstəyi elan etməsindən sonra SSRİ-də ABŞ-İngiltərə münasibətlərinə tənqidi yanaşmalar başladı. SSRİ-yə görə Aleksandr Heyq İngiltərənin “yeni müstəmləkəçilik fəaliyyətlərinin xəbərçisi” olaraq xidmət edirdi.

Apreldən əvvəl SSRİ qəzeti “Krasnaya Zvezda”-da dərc olunan xəbərə görə Reyqan adminstrasiyası İngiltərə və Argentina arasında yaşanan bu böhrandan faydalanaraq, adada öz hərbi bazasını qurmaq istəyirdi. SSRİ Heyqin vasitəçilik siyasətinin ABŞ-İngiltərə əməkdaşlığının gizlədilməsi üçün bir vasitə olaraq görürdü. Yenə SSRİ şərhçilərinin fikrincə, İngiltərənin diplomatik danışıqlara yanaşmaması və böhranı gücləndirməsinin səbəbi regiondaki iqtisadi maraqlarını qorumaq və Marqeret Tetçerin ölkə daxilindəki uğursuz siyasətini gizlətmək idi.

İsrail dövləti qurulduqda xaricdə ilk nümayəndəliyini Argentinada açdı. İsrail 1948-ci ildən 1970-ci illərin sonuna qədər Argentinanın ən mühüm ticarət tərəfdaşı olub. Bu illərdə İsrailin silah satışının 25%-i Argentinanın payına düşürdü. Argentina ordusunda 1955-ci ildən etibarən daha çox ABŞ malı olan təchizatlar istifadə olunurdu. ABŞ prezidenti Karter Argentinada olan insan hüquqlarının pozulması

səbəbilə, 1978-ci ildə Argentinaya olan silah satışını məhdudlaşdırmaq qərarına gəldi. Eyni tarixə təsadüf edən Beagle böhranı Argentinanı silah axtarmağa sövq etdi. Bu böhranın səbəb olduğu silah axtarışına qədər İsrail-Argentina arasında yeganə əsas silah müqaviləsi 1976-cı ildə reallaşan 18 ədəd raket satışı idi (45, s 27).

Folklend müharibəsində istifadə olunan silahların əksəriyyəti Çiliyə qarşı planlaşdırılan müharibə üçün hazırlanmışdı. 1978-ci ilin sonunda Argentinanın təkcə İsraillə deyil, Fransa, Qərbi Almaniya, Belçika, İtaliya, İngiltərə və Cənubi Koreya ilə silah müqavilələri mövcud idi. Bu müqavilələr döyüş gəmiləri, EXOCET raketləri, döyüş sursatı, vertolyot hissələri və rabitə vasitələrini əhatə edirdi. 1981-ci ildə İsrail Argentinanın silah ehtiyacının 17%-ni qarşılayırdı.

İsrail müharibənin əvvəlində İngiltərənin təzyiqi ilə Argentinaya yeni silah satmayacağını bildirsə də, silah satmağa davam edirdi. Argentinalı iki zabit İsrail Aviasiya Sənayesi ilə Buenos Ayres arasında əlaqənin təmin edilməsi üçün təyin edilmişdi. Müharibə davam edərkən, İsraildən 22 “Mirage 3C” alınıb. İsrail tərəfindən verilən ehtiyat hissələri embarqo səbəbilə Peru və Ekvador vasitəsilə Argentinaya çatdırılırdı (52, s 70).

Argentina eyni zamanda İsrailin şifrəli rabitə kanalından da istifadə edib. Bu səbəblə İngiltərə ABŞ-dan kömək alsa belə, Argentinadakı xunta idarəçiliyi ilə adada olan komandir Menendes arasındaki əlaqədən xəbərdar ola bilməmişdi. İsrailin embarqoya baxmayaraq, Argentinaya silah verməsinin səbəbi İngiltərənin də İsrail düşmənlərinə-ərəb ölkələrinə silah satması olub. Ancaq Hernan Dobrinin “İsrail əməliyyatı” kitabında yazdığına görə, İsrailin baş naziri Menahem Begin Fələstində ingilislər tərəfindən öldürülən dostu Dov Qrunerin qisasını almaq üçün ingilislərə qarşı vuruşan Argentinaya kömək edirdi (37, s 129).

Argentinaya qarşı tətbiq olunan sanksiyalar müharibədən sonra da davam etmişdir. Bu müddətdə İsraildən Argentinaya Amerika istehsalı olan 24 ədəd “A-4 Skyhavk” döyüş təyyarəsi və İsrail istehsalı olan 22 təyyarə satıldı. Argentina prezidenti Raul Alfonsin 1985-ci ildə İsraillə olan bütün silah müqavilələrini ləğv etdi.

ABŞ Argentinanı komunizmə qarşı bir sədd olaraq görürdü. Argentina ABŞ-ın Mərkəzi Amerikada davam etdirdiyi anti-kommunist mübarizə, xüsusilə Nikaraqua, Salvador və Qvatemalada Sandinista partizanlarına qarşı mübarizədə mühüm müttəfiq idi. Argentina sadəcə Mərkəzi Amerikada deyil, Cənubi Atlantikada da SSRİ-dən, dənizdən gələ biləcək təhdidlərin qarşısını almaq üçün də müttəfiq hesab olunurdu. Adanın işğal edilməsindən sonra AB, neytral qalaraq, vasitəçilik etməsinin də səbəbi bunlar idi. ABŞ bu müttəfiqlik səbəbi ilə Argentinaya açıq-aşkar qarşı çıxa bilmədi. Həm də belə bir yanaşmanın Argentinanı SSRİ ilə yaxınlaşdıracağını düşünürdü.

ABŞ xarici işlər naziri Aleksandr Heyq BMT-də qəbul olunan 502 saylı qətnamədən sonra Tetçerə vasitəçilik etməyi təklifi etdi. Bu təklif tezliklə qəbul edildi, bunun səbəbi isə Tetçerin böhranı diplomatik yolla həll etmək istəyini göstərmək idi. Komandir Qaltieri ilə ABŞ səfiri Şolderman arasında keçirilən danışıqlarda Argentinaya da eyni təklif edilib. Komandir Qaltieri Amerikanın İngiltərəni həm Cənubi Georgia böhranında, həm də Folklend adasının suverenlik məsələsində razı salması üçün bu vasitəçilik təklifini qəbul etdi (16, s 58).

Heyq vasitəçilik cəhdlərinə İngiltərədən başladı. Aprelin 7-8-də həyata keçirdiyi İngiltərə səfərində Britaniya rəsmiləri ilə görüşdü və Tetçerin 502 saylı qətnaməyə əməl olunmaması halında heç bir vasitəçilik sazişini qəbul etməyəcəyini anladı. Bu səbəbdən Argentinaya yönəldi. Argentinaya etdiyi vasitəşilik səfərində Argentinanın Xarici İşlər naziri Kosta Mendes ilə 4 saatlıq görüş keçirildi. Komandir Qaltieri ilə 2 şəxsi görüş keçirdi. Kosta Mendes Argentina qoşunlarının geri çəkilməsi halında suverenlik mövzusunda danışıqların yenidən başlamalı olduğunu bildirdi.

Heyq Komandir Qaltieriyə 502 saylı qətnaməyə əməl etmədikləri təqdirdə Tetçerin razılığa gəlməyəcəyini bildirdi. Qaltieri buna cavab olaraq, adadan hərbi və inzibati varlığını çəkməyəcəyini, lazım gələrsə Kubanın vəd etdiyi dəstəyi qəbul edəcəyini vurğuladı.

Göründüyü kimi, Argentina adaların suverenlik məsələsinin yenidən müzakirə olunması halında qoşunu geri çəkəcəyini, İngiltərə isə qoşun geri çəkildikdə danışıqlara başlayacağını bildirirdi.

Vasitəçilik səfərlərinin əvvəlində Aleksandr Heyq inanırdı ki, Böyük Britaniya donanması hələ Cənubi Atlantikaya çatmamış sülh əldə olunacaq, çünki Argentina üçün mühüm məsələ suverenlik məsələsi, İngiltərə üçün isə adada olan sərvətlərin bölüşdürülməsi idi və Heyq ortaq bir məxrəcə gəlməyin asan olacağını güman edirdi. Bu səbəblə 12 apreldə Heyq iki tərəfin də əməl edəcəyini düşündüyü bir təklif verdi.Təklifə Argentina qoşunlarının adadan çəkilməsi, İngilis donanmasının Folklend adasından 1600 km uzaqda yerləşdirilməsi, Argentinaya qarşı tətbiq olunan sanksiyaların ləğv edilməsi, arxipelaqda BMT, ABŞ, İngiltərə və Argentinaya məxsus müvəqqəti bir idarə sisteminin yaradılması daxil idi. Adadaki regional hakimiyyətin-İngiltərə hökümətinin saxlanılaraq, lakin Argentina idarəçiliyi də daxil edilməklə yeni sistem yaradılacaqdı. Argentina bu təklifi qəbul etmədi. Heyqin Argentinaya etdiyi səfər zamanı Qaltierinin BMT qərarına əməl etməyəcəyini və adadaki varlığını daha da gücləndirməcəyini anlamışdı. Bu zaman adanın suverenliyi məsələsində ABŞ-ın tərəf olmayacağını, lakin Argentinanın adanı işğal etməsinə qarşı da səssiz qalmayacağını bildirdi (34, s 60).

Heyq aprelin 27-də Argentinaya adanın suverenliyi ilə bağlı Amerika tərəfindən hazırlanmış son təklifi verdi. Ada ilə bağlı gələcəkdə həyata keçirilən danışıqlarla əlaqəli olan bu təklif Argentinanı qane etmədi. Argentinaya təqdim olunan bu təklif İngiltərəyə 4 gün əvvəldən verilmişdi. Bu hadisədən sonra Argentina Heyqin vasitəçiliyinə inamını itirməyə başladı. Argentina artıq bu vasitəçiliyin Böyük Britaniya donanmasına vaxt qazandırmaq üçün olduğunu düşünürdü.

Heyq diplomatik səfərlərin yekununda İngiltərənin müharibə etməyə məcbur olacağı təqdirdə ABŞ-ın İngiltərəni dəstəkləyəcəyini rəsmi şəkildə bildirmişdir.

Bütün qeyd olunanlardan belə nəticə çıxarmaq olar ki, istər Avropa ölkələrinin, istərsə də ABŞ-ın Folklend məsələsinin həllində göstərdiyi səylər bir fayda

vermәmişdir. Buna görә dә, münaqişәnin hәll yolu sadәcә Argentina vә İngiltәrәnin maraqlarından vә bir-birlәrinә olacaq kompromisdәn asılı olacaqdır.

## 2.3 Müharibәnin nәticәlәri vә Böyük Britaniya – Argentina münasibәtlәrinin sonrakı inkişafına tәsiri

Argentinanın hәrbi rütbәlilәri 15 iyunda hәyata keçirdiklәri yığıncaqda İngiltәrә ilә olan әlaqәlәrin gәlәcәyini, әsirlәrin ölkәyә geri qaytarılması, atәşkәsi vә Komandir Leopoldo Qaltierinin vәziyyәtini müzakirә etdilәr. Bu görüşün nәticәsindә Qaltieri istefa vermişdir. 1983-cü ildә keçirilәcәk seçimlәrә qәdәr ordunun başına Komandir Nikoladies gәtirilmişdir (47, s 411).

Savaşdan sonra itkilәrlә bağlı fәrqli statistikalar ortaya qoyulmuşdur. İngilis mәnbәlәrinә görә, HMS Sheffield, HMS Ardent, HMS Antelope, HMS Converty, Atlantic Conveyor vә Sir Qalahad batmış vә 3 başqa gәmi zәrәr görmüşdür. Ancaq Argentina qaynaqlarına görә isә bu say daha çoxdur. 9 gәminin tamamilә batrıldığı vә ya savaşa yararsız hala salındığı, 12 gәmiyә ciddi zәrbә endirildiyi, 11 gәmiyә isә atәş açıldığı qeyd olunur. Argentinanın itkilәri isә 1 kreyser, 1 nәqliyyat gәmisi, 1 sualtı vә 5 digәr gәmi olduğu bildirilir. Ölü saylarında da müxtәlifliklәr olsa da , Folklend savaşı müddәtindә 255 ingilis әsgәri ölmüş, 777 ingilis әsgәri yaralanmışdır. Argentinanın isә 635 әsgәri ölmüş, 1068 әsgәri yaralanmışdır. 3 mülki şәxs hәyatını itirmişdir. İngiltәrә hökümәti Folklend savaşı üçün 700 milyon paund, savaşda itirilәn tәyyarә vә gәmilәr üçün isә 900 milyon paund xәrclәmişdir. Rәsmi olmayan mәnbәlәrә görә adanın 4 illik xәrci 2 milyard paunddan çoxdur (62, s 36-39).

Beynәlxalq Qızıl Xaç Komitәsi savaşdan sonra әsirlәrin vәziyyәti ilә yaxından maraqlanmışdır. Komitә may vә iyun aylarında ingilis әsgәrlәri tәrәfindәn әsir alınan

11.00 Argentina əsgərinin III Cenevre Konvensiyası çərçivəsində geri qaytarılması üçün hesabatları səlahiyyətli şəxslərlə bölüşmüşdür. Əsirlərin geri qaytarılmasına nəzarət səlahiyyəti də bu komitəyə məxsus idi. Eyni zamanda komitə 1991-ci ildə adada dəfn edilən Argentinalı əsgərlərin qohumları üçün adaya səfər də təşkil etmişdir.

İngiltərə müharibədən sonra adada hərbi mövcudluğunu gücləndirmək qərarına gəldi. Argentina buna etiraz edərək İngiltərəni Cənubi Atlantikanı silahlandırmaqda ittiham etdi. İngiltərə müharibədən sonra 1982-ci ilə qədər Argentinaya təhsil və səhiyyə ilə bağlı olan adalara da marağını artırmışdır (48, s 105-106).

Folklend savaşı ABŞ-n Latın Amerikasındaki təsirini də azaltdı. Müharibədə İngiltərənin tərəfini tutması, Rio razılaşmasına əməl etməməsi kimi səbəblər Amerikanın Latın Amerikasındaki siyasətinə mənfi təsir etmişdir. Ancaq regiondaki nüfuzunu yenidən bərpa etmək üçün arxipelağın suverenliyi ilə bağlı BMT konfranslarında Argentina lehinə səs verməyə başlamışdır. Çünki Latın Amerikası dövlətlərinin dəstəyi olmadan qeyri-qanuni immiqrasiya və narkotik ticarəti ilə məşğul olmaq mümkün deyildi (48, s 110-111).

Folklend savaşı SSRİ tərəfindən də yaxından izləndi. Dəniz nəzəriyyəçilərindən olan Admiral Stalbo bu hadisələrin dənizçilik tarixinə təsir edəcək qədər əhəmiyyətli olduğunu bildirmişdi. Sovet donanması ilə Birləşmiş Krallığın donanması arasındaki oxşarlıq da müharibənin gedişatını izləməyi əhəmiyyətli edirdi. Argentina qoşunları işğal günlərində adaların boş ərazilərinə 25000-ə qədər mina yerləşdirmişdi. Müharibədən sonra təmizləmək üçün 2 ölkə tərəfindən birgə səylər göstərilsə də, hələ də tam təmizlənməmişdir.

Folklend məğlubiyyəti Argentinanın demokratik bir idare rejiminə keçməsinə səbəb olmuşdur. 1983-cü ildə keçirilən seçkilərdə Radikal Partiyanın lideri Raul Alfonsin rəqibi İtalo Luderə qarşı 50.5% səs toplayaraq qalib gəlmişdir. Raul Alfonsinin xarici siyasət prioritetləri bunlar olmuşdur: Çili ilə olan Beagle böhranını həll etmək, Folklend adalarının suverenlik məsələsini İngiltərə ilə müzakirə etməyə davam etmək, İngiltərənin regionda daimi hərbi gücə çevrilməsinə mane olmaq,

beynəlxalq hüququn prinsiplərini gücləndirməklə mübahisələri sülh yolu ilə həll etmək. Argentina iqtisadiyyatını inkişaf etdirmək üçün sənayeləşmiş ölkələrlə əlaqələri yaxşılaşdırmaq da əsas məqsədlərindən idi. Alfonsin eyni zamanda sərhəd ölkələrlə əlaqələri inkişaf etdirərək Cənubi Amerikanı şərq-qərb münaqişələrindən uzaq bir bölgəyə çevirməyi də hədəfləmişdi. Bu siyasətin nəticəsi olaraq 1983-cü ildə Çili ilə olan böhranda da kompromis əldə edildi. Alfonsin Vatikanın həll təklifini də referendumdan sonra qəbul etdi.

Folklend məğlubiyyəti Argentinada böyük borc böhranına səbəb oldu. 1982-1985-ci illər arasında devalvasiya və büdcə kəsrləri baş verdi, inflyasiya tədricən artdı. Raul Alfonsinin ən böyük uğuru Çirkli müharibə dövründə törədilən insan haqları pozuntularını araşdırmaq üçün CONADEP-i qurması idi. Eyni zamanda ABŞ tərəfindən arxivlərdə tapılan minlərlə sənəd də 2000-ci ildən etibarən ictimaiyyətə təqdim edildi.

Argentina Folklend məğlubiyyətindən sonra SSRİ tərəfindən dəstəklənməyə başlanmışdır. Cənubi Atlantikanın silahsızlandırılması və iqtisadi əməkdaşlıq üçün Argentina, SSRİ və Bolqarıstan arasında 1986-cı ildə müqavilə imzalanmışdır. Argentinanın Folklend məğlubiyyətinə baxmayaraq arxipelaq üzərindəki hakimiyyət iddiaları hələ də davam etməkdədir. İdarə sistemi federativ respublika olan Argentinanın 1994-cü ildə konstitusiyasına adalarla bağlı maddə əlavə olunmuşdur – “Argentina dövləti milli ərazinin tərkib hissəsini təşkil etmə səbəbilə Malvin, Cənubi Georgiya və Cənubi Sandviç adaları və bu adalara aid olan su əraziləri üzərində öz qanuni və əbədi suverenliyini təsdiq edir. Adı çəkilən bölgələrin geri alınması və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq sakinlərin həyat tərzinə hörmət etmək şərti ilə suverenliyin qorunub-saxlanılması Argentinanın əvəzsiz və daimi məqsədini təşkil edir.”

Marqaret Tetçer Folklend savaşında əldə etdiyi uğur səbəbilə 1983-cü ildə keçirilən seçimlərdə də yenidən qələbə qazanmış və parlamentdəki gücünü artırmışdır. Bruniyə görə əgər Folklend savaşı İngiltərənin problemi idarə edə bilməməsinə əsaslanırdısa, İngiltərənin qələbəsi də Tetçerin savaşı nəzarət altına

almaq üçün aldığı sürətli və qətiyyətli qərarlara əsaslanırdı. Eyni zamanda bu sonralar Tetçerin də mövqeyini möhkəmləndirməsinə səbəb olan amil idi. Ancaq ingilis yazıçısı Antoni Bernetteyə görə isə Marqeret Tetçer nüfuzunu artırmaq və seçimi qazanmaq üçün ada sakinlərinin istəklərini öz mənfəəti üçün istifadə etmiş kimi görünməkdə idi.

İngilis kəşfiyyat birliklərinin Argentinanın işğalını qabaqcadan sezə bilməmələri həm ingilis kəşfiyatının, həm də Marqeret Tetçerin səhvi olaraq görülmüşdür. Xəbərləşmə qərargahı Argentinanın məlumatlarını kompüter kodlarını qıra bilmədikləri üçün əldə edə bilməmişlər. İngiltərənin Cənubi Amerikadaki xərclərini azaltmaq üçün kəşfiyyat fəaliyyətlərini də azaltdığı məlum idi. Bu isə ölkədəki kəşfiyyat zəifliyini göstərməkdə idi.

Bütün Argentina hökümətinin Folklendə hakimliyi xarici siyasətin birinci dərəcəli məsələsi halına gətirmələrinə baxmayaraq İngilis hakimiyyətinin məsələ ilə kifayət qədər maraqlanmadığı da vurğulanırdı. Ancaq Folklend qələbəsindən sonra 1983-cü ildə olan xüsusi dəyişikliklərlə bütün Folklendlilər İngiltərə vətəndaşı olaraq qəbul edilmişdir. 2022-ci ildə isə "Britaniyanın xarici ərazilərі" Aktı ilə bütün xarici ərazilərdə olan vətəndaşlar tam olaraq İngiltərə vətəndaşlığına qəbul edilmişdir.

İngiltərədə Folklend savaşına olan ictimai rəy anketlərlə ölçülürdü. Ümumilikdə İngiltərənin 53 fərqli regionunda savaşın ilk həftəsində 18 yaşdan yuxarı olan 1018 nəfər ilə üzbəüz və ya telefonla sorğu keçirilmişdir. Bu sorğu "The Economist" jurnalı ilə "BBC Panaroma" adlı televizor proqramı üçün keçirilmişdi.

Fərqli tarixlərdə fərqli suallarla eyni 1018 nəfər işindən seçilən qruplarla sorğular təkrarlanmışdır. 14 apreldə keçirilən sorğuda "Hökümətin ölkəni idarə etməsindən razısınız mı?" sualına 34% razılıq, 58% isə qeyri-razılıq cavabını vermişdir. Yenə eyni tarixdə soruşulan "Tetçerin rəhbərliyindən razısınız mı?" sualının yekununda 40% razılıq, 54% qeyri razılıq cavabı alınmışdır. "Müharibədən sonra İngiltərənin qarşılaşdığı ən böyük problem hansıdır?" sualında Folklend məsələsinə aprelin 14-də 39% səs verilərkən, mayın 3-5-də tarixlərində isə əhalinin

61%-i səs vermişdir. Bu dəyişikliyin səbəbi isə mayın 4-də HMS Sheffieldin vurulması olmuşdur.

Bu sorğulara baxıldığında savaşın ilk günlərində Tetçer hökümətinin ölkəni idarə etməkdə zəif olduğunu görmək olar. Xalqın yarısı mövcud hökümətin idarə etməsindən razı deyildi. Ancaq sonraki günlərdə xalqın sistemə qarşı olan narazılığının azaldığını və xalqın qəzəbinin Argentinaya və qoşunlara yönləndirdiyi görünür.

Savaşdan sonra iki ölkə arasında əlaqələr uzun müddət yaxşılaşmamışdır. Diplomatik danışıqlar 1990-cı ilin əvvəllərinə qədər İsveçrə və Brazilyanın nəzarəti altında davam etdirilmişdir. İsveçrə Argentinada Britaniyanın maraqlarını təmsil etdiyi halda, Brazilya İngiltərədə Argentinanın maraqlarını təmsil edirdi.

Argentina prezdenti Alfonsin müharibədən qalan düşmənçiliyin bitdiyini rəsmi olaraq elan etməmişdir. Ancaq əvvəlki idarə sisteminin istifadə etdiyi güc tətbiqinə bir daha müraciət etməyəcəyini və beynəlxalq arenada suverenliyə sahib olma iddialarını davam etdirəcəyini bildirib. Argentina höküməti arxipelaqla bağlı siyasətinin müxtəlif diplomatik vasitələrlə İngiltərəni diplomatik masa arxasında oturtmaq olacağını açıqladı və eyni zamanda İngiltərə parlamentindəki müxalifətlə birlikdə çalışacağını bildirdi.

Argentina Folklenddə məğlub olmasına baxmayaraq buradakı iddialarını qətiyyətlə davam etdirmişdir. Bu halda iki ölkə də diplomatik əlaqələrin yenidən qurulması mövzusunda razılığa gələ bilmirdilər. İngiltərə adanın suverenlik məsələsini daxil etmədən, diplomatik və iqtisadi münasibətləri yenidən qurmaq istəmişdir. 1984-cü ildə İngiltərə İsveçrədə aparılan danışıqlarda Argentinanın suverenlik məsələsini daxil etməsinə etiraz etmiş və danışıqlar nəticəsiz qalmışdır. 1986-cı ildə iki ölkə arasında balıqçılıq böhranı yaşandı. Argentina mübahisəli ərazidə SSRİ və Bolqarıstan balıqçılarına ov üçün icazə verdi. Bu vəziyyət Cənubi Atlantikada ABŞ-ın vasitəçilik etdiyi yeni bir böhrana səbəb olmuşdur. 3 il davam edən danışıqlar nəticəsində Argentina suverenlik məsələsini daxil etmədən diplomatik danışıqların yenidən başladılmasını qəbul etmişdir. İngiltərə isə əldə

etdiyi qələbəyə baxmayaraq Folklend münaqişəsinin silahlarla həllinin mümkün olmadığını qəbul etmişdir. Bu halda iki tərəfin də müharibədən əvvəlki vəziyyətə qayıtmaq istədiyi nəticəsi çıxarıla bilər.

1984-cü ildə Argentina höküməti bir həll yolu təklif etdi. Adanı əhatə edən təhlükəsizlik zonasının ləğv olunması və adadaki ingilis əsgərlərinin sayının azaldılması, yerlərinə isə BMT əsgərlərinin gətirilməsi kimi tələblər etdi. Bunların təmin olunması qarşılığında Argentina tərəfinin hərbi əməliyyatları rəsmən dayandıracağı və diplomatik münasibətlərin bərpa ediləcəyi bildirilib. Britaniyanın baş naziri Tetçer hər nə qədər Argentina ilə münasibətləri yaxşılaşdırmaq istəsə də, Argentina üçün ilkin şərt olan arxipelağın suverenliyinin müzakirəsini qəbul etmədi. Bu təklifin sonunda yalnız müharibədə ölən əsgərlərin cəsədlərinin qaytarılmasına dair razılıq əldə edildi.

Ortaq qərara gəlinməməsinə baxmayaraq regionun iqtisadi əhəmiyyəti iki ölkəni əməkdaşlığa məcbur etdi. 1990-cı illərdə Cənubi Atlantikada neft axtarış fəaliyyəti göstərən 600-dən çox platforma mövcud idi. Bu regiondan dünya üzrə neftin 22%-i çıxarılır. Afrikada Nigeriya, Konqo, Anqola kimi ölkələr nefti şelf zonasından çıxararkən, Amerika qitəsində Brazilya dənizdən, Argentina və Uruqvay isə Magellan boğazından və Pataqoniya sahillərindən çıxarırdı. Folklend adalarının şərqində, Cənubi Georgia və Antraktidada isə böyük neft ehtiyatlarının olduğu təxmin edilirdi. İqtisadi xərc səbəbi ilə yalnız axtarış fəaliyyəti davam etdirildi. Neft iki ölkə arasında yenidən böhrana səbəb olana qədər regiondaki ən mühim gəlir mənbəyi balıqçılıq idi.

| **1982-ci ildən sonra qurulan neft əməkdaşlığı** | |
|---|---|
| **1986** | Folklend höküməti tərəfindən adaların əhatəsind 150 millik balıqçılıq bölgəsi yaradıldı. |
| **1993** | Adaların ətrafında 200 millik bir bölgəni əhat edən neft axtarış zonası yaradıldı. |
| **1995** | Argentina və İngiltərə arasında birgə neft axtarı müqaviləsi imzalandı. Ancaq birgə axtarı |

| | |
|---|---|
| | aparılmadı. |
| **1996** | Folklend hökuməti bəzi şirkətlərə neft axtarı lisenziyası satmağa başladı. |
| **1998** | Folklend arxipelağı ətrafında qazma işlər başladıldı. Lakin aşağı neft qiymətləri daha ço investisiya qoyulmasına mane oldu. |
| **2010** | Folklend hökuməti yeni neft axtarış lisenziyalar satdı. Regionda bəzi qaz və neft kəşfləri edildi. |
| **2016** | BMT-nin Kontinental Şelf Limitləri üzr Komissiyası Folklendin Argentinanın əraz sularında yerləşdiyini bəyan etdi. Ancaq İngiltər qərarın məcburi olmadığını bildirdi. |
| **2016** | Hər iki ölkə neft və qaz axtarışı və çıxarılması üçü əməkdaşlığa söz verdi. |

İngiltərə hökuməti 1987-ci il 1 fevraldan etibarən arxipelağın əhatəsində bir balıqçılıq bölgəsi yaradacağını elan etdi. Bu bölgədə ov etmək istəyən balıqçı gəmiləri ödəniş etməli idi. Argentina gəmilərinin də İngiltərə hökumətindən icazə alması lazım idi. Ancaq Argentina hökuməti bu şərtə etiraz etmişdir. Argentina 1987-ci ilə qədər İngiltərə ilə apardığı danışıqlarda zəif mövqedə çıxış etmişdir. Bunun səbəbi Raul Alfonsinin suverenlik məsələsində güzəştə getmədən diplomatik əlaqələri yenidən qurmaq istəməsi idi.

Karlos Menem 1989-cu ildə Argentinanın prezidenti olduqdan sonra arxipelağın suverenliyini daxil etmədən Britaniya ilə danışıqlar aparmağa razı oldu. Londonla əlaqələrin inkişaf etdirilməsi istiqamətində müsbət addımlar atıldı. 1989-cu ilin oktyabrında keçirilən görüşdə razılıq əldə edildi. Beləliklə, müharibədən qalan düşmənçilik vəziyyətinə rəsmi olaraq son qoyuldu. Bəzi məsələlər müharibədən

əvvəlki vəziyyətinə qayıtdı. Adanın çevrəsindəki təhlükəsizlik zonası ləğv edildi. Karlos Menemin apardığı siyasət Argentinanın beynəlxalq nüfuzunu da gücləndirdi.

1998-ci ildə Karlos Menem İngiltərəyə rəsmi səfər etdi və Folklend adası haqqında öz ölkəsinin tarixi iddialarını yenilədi, lakin sülh yolu ilə həll üçün hazır olduğunu da vurğuladı. 2001-ci ildə Toni Blair Argentinaya rəsmi səfər etdi. 2000-ci illərdən etibarən adanın əhatəsində getdikcə intensivləşən neft axtarış fəaliyyətləri iki ölkə arasında yeni diplomatik gərginliklər yaratmağa başladı. 1995-ci il tarixli konsensus iki ölkənin dənizin dibində ortaq axtarış aparmasını və neft-qazın iki ölkə arasında bölüşdürülməsini nəzərdə tuturdu. Lakin Argentina 2007-ci il mart ayında Böyük Britaniyanın tək tərəfli qazma fəaliyyəti ilə məşğul olduğunu sürərək konsensusdan imtina etdi. 2012-ci ilin yanvarında İngiltərə Xarici İşlər naziri Devid Kameron Argentinanı müstəmləkəçi kimi günahlandıraraq münaqişəni daha da alovlandırdı. 2012-ci ilin fevralında Folklend adasına müharibə gəmisi göndərmə qərarının alınmasıvə şəhzadə Üilyamın Folklend adasında altı həftə ərzində axtarış-xilasetmə pilotu kimi təlim keçib, xidmət edəcəyi elan edildi. Bundan sonra Argentinalı Xarici İşlər naziri Hektor Timerman İngiltərəni rəsmi şəkildə BMT-yə şikayət etmə qərarı verdi.

Günümüzdə iki ölkə arasındakı bu məsələ vaxtaşırı müzakirə olunaraq KİV-də özünə geniş yer tapsa da, Argentina Folklend adasının ərazi sularında neft axtarışının suverenlik haqlarına zidd olduğunu, İngiltərənin də neft və qaz axtarış fəaliyyətinin "Folklend adası xalqının öz müqəddəratını təyinetmə haqqı" olaraq gördüyünü bildirdiyi müddətcə münaqişənin uzun illər ərzində davam edəcəyi deyilə bilər.

# NƏTİCƏ

Folklend adalarını suverenlik problemi XVIII əsrdən bu günə qədər İngiltərə və Argentina arasındaki münasibətlərdə həlledici rol oynamışdır. Adaların suverenliyi Argentina üçün xarici siyasətin prioritet məsələsi olduğu halda İngiltərə üçün o qədər də vacib görünmürdü. BMT-nin yaradılmasından sonra Bu problem bir müstəmləkə problemi olaraq müzakirə olunmuşdur,ancaq ada sakinlərinin İngiltərədən müstəqillik tələb etməməsi, əksinə İngiltərəyə bağlı olmaq istəkləri sadəcə Argentina üçün deyil, İngiltərə üçün də çətin diplomatik prosesin başlanğıcı olmuşdur. Bu proses 1982-ci ilin əvvəllərində başa çatdı.

Birləşmiş Millətlər Təşkilatı çərçivəsində aparılan müzakirələr zamanı İngiltərə Xarici İşlər Nazirliyi tərəfindən Folklend adaları üzərində suverenliyin Argentinaya verilməsi, lakin idarəçiliyin müəyyən müddət üçün İngiltərədə qalması təklif olundu. Belə təklifin irəli sürülməsinin səbəbi Argentinanın danışıqlardakı qətiyyətli mövqeyi və İngiltərənin regiondakı ticari maraqları ilə izah oluna bilər. Argentina ilə əməkdaşlıq olmadan adaların iqtisadi cəhətdən tərəqqi edə bilməyəcəyi də danışıqların davam etdirilməsinə şərait yaradan mühüm amil olmuşdur.

Neft iki ölkə arasındaki münasibətlərin mərkəzindədir. Folklend adasının çevrəsində zəngin neft yataqlarının tapılması Argentina ilə əməkdaşlığın qurulmasını zəruri etdi,çünki, Argentinanın icazəsi olmadan regionda neft axtarışı və hasilatı sahəsində fəaliyyəti reallaşdırmaq mümkün deyildi. Bu səbəbdən suverenliyin Argentinaya verilməsinin əməkdaşlıq kimi şərh edilməsi və adanın idarəçiliyində İngiltərənin saxlanılması Londonun neft yataqlarına Argentinanın da çıxışına zəmanət verəcəyi barədə fikir formalaşırdı.

Zəngin yeraltı sərvətləri və Argentinanın arxipelaqa olan iddiaları səbəbindən Folklend adalarının suverenliyi mövzusunda aparılan danışıqları davam etdirmək zərurəti yaratmışdır. Danışıqlara son qoyulacağı təqdirdə, 1976-cı ildə hakimiyyətə gələn Argentina hərbi xuntasının Folklend adalarında güc tətbiq edəcəyi düşünülürdü. Argentinaya qarşı arxipelağın müdafiəsini gücləndirmək baha başa gəldiyindən

İngiltərə danışıqlarda diqqəti yayındırma siyasəti aparırdı. İngiltərə BMT qətnamələrinə uyğun olaraq aparılan danışıqlardan gərginliyi azaldacaq bir vasitə kimi istifadə edirdi.

Argentinanın Folklend adalarının işğalı qərarını almasında ən mühüm səbəb diplomatik prosesin uğursuz olması idi. Argentinaya görə,Britaniya hakimiyyəti diplomatik danışıqları sadəcə iki dövrdə ciddi şəkildə aparmışdır. 1966-1967 və 1977-1980-ci illər Folklend adasının suverenliyi məsələsi haqqında İngiltərə Argentina ilə razılığa gəlməyə çalışdığı illərdir. Danışıqların ciddi şəkildə aparıldığı ilk dövrün sonunda Folklend adasının Argentinaya verilməsini istəməyən bir qrup Folklend lobbisi ortaya çıxdı. İngiltərə 1968-ci ildən sonra Argentina hökümıəti ilə apardığı xüsusi danışıqlara bu lobbinin daxil olmasına mane ola bilmədi. Bu müddətdə Folklend lobbisi İngiltərə və Argentina arasında danışıqların qarşısını almaqla yanaşı,ada sakinləri ilə Argentina arasında effektiv ünsiyətin qurulmasına da mane oldu.

Argentina və ABŞ arasında strateji əməkdaşlıq da Argentinanın adaya olan iddialarını intensivləşməsinə təsir göstərmişdir. Argentina xuntası ABŞ-ın birtərəf qalacağı və ya Argentinaya dəstək verəcəyini düşünürdü. Bu fikir Monro doktrinası və Rio paktı kimi regional, ümumi müdafiə tələb edən müqavilələrə əsaslanırdı. ABŞ xarici işlər naziri Heyqin vasitəçilik cəhdləri Argentina tərəfindən mühüm dəstək kimi qiymətləndirilmiş olsa da, komandir Qaltierinin 502 saylı BMT qətnaməsinə əməl etməməsi səbəbindən uğursuzluqla nəticələndi,ancaq ABŞ müdafiə naziri Kasper Uaynberqerin Folklend adalarının işğal edildiyini öyrəndikdən sonra İngiltərəyə kəşfiyyat məlumatlarının axınnıı təmin etməyə başlaması əhəmiyyətli bir məqamdır. Bu Amerika vasitəşiliyinin qərəzsizliyini sual altında qoyurdu.

Latın Amerikası ölkələri Argentinanın ada üzərindəki suverenlik iddialarını dəstəkləyirdi,lakin İngiltərənin nəzarəti altında olan torpaqlarda güc tətbiq edilməsi Argentinaya dəstək verilməsinə mane oldu. Argentinanın güc tətbiqini dəstəkləməyin qitədəki digər münaqişələri şiddətləndirəcəyi güman edilirdi. Eyni zamanda daha çox

iqtisadi əməkdaşlığa əsaslanan razılaşmalar nə genişmiqyaslı böhranın qarşısını ala bildi, nə də məsələni sülh yolu ilə həll edə bildi.

Münaqişənin müharibəyə çevrilməsinin bir sıra səbəbi var idi. İngiltərə hökümətinin danışıqlarda izlədiyi uğursuz siyasət bunlardan biri idi. Bu uğursuzluq isə Folklend adalarının işğal ilə nəticələndi. İngiltərə baş naziri Marqeret Tetçerin böhranı idarə etmək qabiliyyəti bu uğursuzluğu qələbəyə çevirdi. Ölkə daxilində iqtisadi problemlərlə mübarizə aparan Tetçer qələbədən sonra hakimiyyətini möhkəmləndirdi və sonrakı addımlarda Folklend qələbəsinin təsirindən faydalandı. İngiltərə 1982-ci ildən sonra suverenlik məsələsini bir daha müzakirə etmədi,lakin Argentina Folklend adası üzərindəki suverenlik iddialarını bu gün də davam etdirir. İki ölkə arasındakı danışıqlar iqtisadi əməkdaşlıq və ada sakinlərinin inkişafı çərçivəsində davam etdirilir. Fərqli vaxtlarda gərginləşən mübahisələrin əsas səbəbi regiondaki yeraltı sərvətlərin çıxarılması, İngiltərə və Folklend hökümətinin Argentinanın qonşuları ilə qurduğu münasibətlər olmuşdur.

Son olaraq,hər iki ölkədə ciddi itkilərə səbəb olan Folklend müharibəsi münaqişəni həll edə bilmədi. Argentina höküməti ada üzərində suverenlik iddialarını davam etdirməsinə baxmayaraq, Argentina iqtisadiyyatı və Argentina vətəndaşlığı ada sakinləri üçün daha cəlbedici deyildir.Brexsit prosesindən sonrakı mərhələni Argentina və İngiltərə münasibətlərində yeni mərhələ kimi qiymətləndirmək olar.Yeni dövrdə Argentina-İngiltərə tərəfdaşlığı çərçivəsində Folklend adalarına xüsusi statusu verməklə həm iqtisadi əməkdaşlıq, həm də iki ölkənin və ada sakinlərinin istəklərini nəzərə alaraq, razılaşma əldə etmək.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**

1. Mustafayeva S. ABŞ və Britaniyanın ən yeni tarixi, Bakı, ADPU-nun nəşriyyatı 2009, 349s.
2. Qurbanova Ş. Cavadova S. ABŞ-ın xarici siyasəti, Bakı, 2011, 301s.
3. Kərəm B., Yunis İ. Latın Amerikası ölkələri, Bakı, 2012, 169s.
4. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi, Bakı, 2010, 195s.

**Türk dilində**

5. Akad M. T. 20. Yüzyıl Savaşları ve 21. Yüzyılın Başında Yakın Tarihin Savaşlarına Bakış. İstanbul, Kastaş Nəşriyyat, 2011.
6. Arıbaş K. Hispanya, Siyasi Coğrafya, Çizgi Kitab evi Nəşriyyat, 2009.
7. Armaoglu F. 20. Yüzyıl Siyasi Tarihi, 1914-1995, Istanbul, Alkim Nəşriyyat, 2010.
8. Armaoğlu F. H. 19. Yüzyıl Siyası Tarihi (1789-1914), Türk Tarih Kurumu Nəşriyyat, 1997.
9. Chasteen J. C. Latin Amerika Tarihi: Kanla ve Ateşle Yoğrulmuş Toprakların Öyküsü. Say Yayınları, 2011.
10. Ferro M. Sömürgecilik Tarihi: Fetihlerden Bağımsızlık Hareketlerine Kadar 13.-20. Yüzyıl. İmge Kitabevi, 2002
11. Pazarcı H. Uluslararasi Hukuk Dersleri 2. Kitap. Ankara: AÜ Siyasal Bilimler Fakültesi Yayınları, 1989
12. Şahin M. Avrupa Birliğinin Self Determinasyon Politikası. Nobel Yayın Dağıtım, 2000
13. Şahin M. Avrupa Birliğinin Self Determinasyon Politikası, Nobel Yayım Nəşriyyat

**İngilis dilində**

14. Acevedo D. E. The U.S. Measures Against Argentina Resulting from the Malvinas Conflict, The American Journal of International Law, 1984, 344s.

15. Akdağ İ. Civilian-Military Relations in The Argentinean Democratization (1983-1995) Orta Doğu Teknik Üniversitesi, Yüksek Lisans Tezi, Ankara, 2006.

16. Andarcia L. Falkland's War: Strategic, Intelligence and Diplomatic Failures (US Army War College), http://www.dtic.mil/docs/citations/ADA157369.

17. Anderson D. The Falklands War 1982. Oxford, Osprey, 2002.

18. Arquilla J. Rasmussen M. M. The Origins of the South Atlantic War, Journal of Latin American Studies, 2001, 775s.

19. Badsey S., Havers, R. P. W., Grove, M. J.The Falklands Conflict Twenty Years On, Lessons For The Future, 2005.

20. Bahbah B. Israel's Military Relationship with Ecuador and Argentina. Journal of Palestine Studies, 1986 https://doi.org/10.2307/2536828

21. Bellot A. The Malvinas/Falklands War (1982): Pacific Solutions for an Atlantic Conflict, 2013 https://doi.org/10.1344/co20131020-30

22. Berlinski C. There Is No Alternative: Why Margaret Thatcher Matters. Basic Books, 2006

23. Bernadou E. Was the Invasion of the Falkland Islands A Correct Political Decision by Argentina. US Army War College, 1997

24. Black J. Britain Since The Seventies: Politics and Society in The Consumer Age. London: Reaktion Books, 2004

25. Black J. A Military History of Britain: From 1775 to The Present. Westport, Conn.: Praeger Security International, 2006

26. Blundell J. Margaret Thatcher: A Portrait of the Iron Lady. New York, NY: Algora, 2008

27. Bluth C. The British Resort to Force in the Falklands/Malvinas Conflict 1982: International Law and Just War Theory, Journal of Peace Research, 1987, 520s.

28. Bluth C. Anglo-American Relations and the Falklands Conflict. Içinde A. Danchev (Ed.), International Perspectives on the Falkland Conflict. Macmillan Press. 1992

29. Boyce D. G. The Falklands War. New York: Palgrave Macmillan, 2005.

30. Bruni D. M. The British Political Parties And The Falklands War. Palgrave Macmillan, 2018

31. Chehabi H. E. Self-Determination, Territorial Integrity and the Falkland Islands Political Science Quarterly, 100(2), 1985, 215-225. https://doi.org/10.2307/2150653

32. Chou A. M.. Between Wishes and Interests: Britain's Policy Preferences On The Issue of The Falkland Islands, 1966-68, 2000

33. Colombo J. L. “Super Etendard” Naval Aircraft Operations During The Malvinas War. Naval War College Review, 37(3), 1984, 12-22.

34. Connell-Smith G.. The OAS and the Falklands Conflict. The World Today, 38(9), 1982, 340-347.

35. Delgado J. Antonio. A Cartographic View Of The Falkland Malvinas Sovereignty Problem (University of Texas at Arlington), 1995.

36. Dickens P. D. The Falkland Islands Dispute Between the United States and Argentina. The Hispanic American Historical Review, 9(4), 1929, 471-487. https://doi.org/10.2307/2506754

37. Dillon G. M. The Falklands, Politics, And War. Houndmills, Basingstoke, Hampshire: Macmillan, 1989

38. Dixon D. Thatcher's People: The British Nationality Act 1981. Journal of Law and Society, 10(2), 1983, 161-180. https://doi.org/10.2307/1410230

39. Donaghy A. The British government and the Falkland Islands. Basingstoke: Palgrave Macmillan, 2014

40. Dunnett D. Self-Determination and the Falklands. International Affairs (Royal Institute of International Affairs 1944-), 59(3), 1983, 415-428. https://doi.org/10.2307/2618795

41. Ellerby C. R. British Interests in The Falkland Islands: Economic Development, the Falkland Lobby And The Sovereignty Dispute, 1945 to 1989 (University of Oxford), 1990

42. Ellerby C. R. The Role of The Falkland Lobby 1968-1990. Içinde A. Danchev (Ed.), International Perspectives on the Falkland Conflict, Macmillan Press, 1992

43. Evans M. The Restoration of Diplomatic Relations Between Argentina and the United Kingdom. The International and Comparative Law Quarterly, 1991, 473-482.

44. Feldman D. L. The United States Role in the Malvinas Crisis, 1982: Misguidance and Misperception in Argentina's Decision to Go to War. Journal of Interamerican Studies and World Affairs, 1985, 1-22. https://doi.org/10.2307/165715

45. Fernandez S. Malvinas 1982: Symmetrical Misunderstandings and Overreactions Lead the Way to War. U.S. Army War College, 2002.

46. Finlan A. The Royal Navy in the Falklands Conflict and the Gulf War: Culture and Strategy. London: Frank Cass, 2004

47. Freedman L. The Falklands War and the Concept of Escalation, 1992

A. Danchev (Ed.), International Perspectives on the Falklands Conflict A Matter of Life and Death. St Martin's Press.

48. Freedman L., Gamba-Stonehouse, V. Signals of War: The Falklands Conflict of 1982. Princeton University Press, 2014

49. Gamba-Stonehouse V. Strategy İn The Southern Ocean: A South American View, 1989 http://catalog.hathitrust.org/api/volumes/oclc/20263378.html

50. Ganley G.D. ve Ganley O.H. Unexpected War in The İnformation Age. Communications and İnformation in the Falklands Conflict, Center for Information Policy Research, Harvard University, 1984

51. Gustafson L. S. The Sovereignty Dispute over the Falkland (Malvinas) Islands. Oxford University Press, 1988

52. Hastings M., & Jenkins, S. The Battle for the Falklands. London: Michael Joseph Ltd, 1983

53. Hedges J. Argentina: A Modern History. London: I.B. Tauris, 2011.

54. Kirkpatrick J. J. My Falklands War and Theirs. The National Interest, 1989, 11-20.

55. Kotani K. Political and Diplomatic Lessons of the Falklands War. The National Insititute for Defence Studies, 2013, 115-122

56. Lanker R. G. Competing Claims Among Argentina, Chile and Great Britain in the Antarctic: Economic and Geopolitical Undercurrents (Naval Postgraduate School), 1991

57. Leach H. Crisis Management and the Assembly of the Task Force. Içinde S. Badsey, R. Havers, & M. Grove (Ed.), The Falklands Conflict Conflict Twenty Years On Lessons for the Future. New York: Frank Cass, 2005

58. Livingstone G. Britain and the Dictatorships of Argentina and Chile, 1973 1982. Palgrave, 2018 https://link.springer.com/openurl?genre=book&isbn=978-3319-78291-1

59. Freedman L., The Official History of the Falklands Campaign, Volume 1. Routledge, 2005

60. İnan A. Life and Works of Piri Reis, Ankara: Atatürk Supreme Council for Culture, Language and History Publications of Turkish Historical Society, Serial VII-NO69, 2008

61. Puche L. C. R. A. The Malvinas War From The Argentinian Viewpoint. Pickle Partners Publishing, 1988

62. Greig D.W, Sovereignty and the Falkland Islands Crisis, Australian Year Book of International Law, 1983

63. Oakes A. Diversionary War: Domestic Unrest and International Conflict, 2012 http://ebookcentral.proquest.com/lib/mkemal/detail.action?docID=1021179

64. Zarza L. A. Malvinas: The Argentine Perspective of the Falkland's Conflict: A Monograph, U.S. Army Command and General Staff College, 2010